QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 177 (6377) 30 sentyabr 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# "Azərbaycan və Gürcüstan arasında siyasi dialoq həmişə fəal olub və indi də fəal olmaqda davam edir"



Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri ilə görüşüb



## Putin Ərdoğanla görüşündə Türkiyənin Qarabağdakı vəziyyətə təsirindən danışıb

## "Azərbaycan xalqının Vətən müharibəsində qazandığı Zəfər bütün türk dünyası üçün mühüm əhəmiyyət daşıyır"



*Milli Məclisin sədri Sahibə Qafarova rəsmi səfəri çərçivəsində sentyabrın 29-da paytaxt Nursultan şəhərində Qazaxıstan Respublikasının birinci Prezidenti - elbası Nursultan Nazarbayevlə görüşüb.*

Bax 7

## "Azərbaycanda uğurlu dövlət gender siyasəti həyata keçirilir"

Bax 4



## ABŞ-ın Azərbaycandakı səfiri niyə susur?



Bax 8

ABŞ demokratları Ağ evə bu gün də nəticələri şübhəli görünən prezident seçkiləri nəticəsində yiyələndikdən sonra bütün türk...



## Rusiya və Azərbaycan arasında Moskva müqaviləsindən 101 il keçdi

Bax 15

## Britaniyalı jurnalist: "İkinci Qarabağ müharibəsindəki Qələbə Azərbaycan tarixində silinməz izlər buraxıb"



Qırx dörd gün davam edən İkinci Qarabağ müharibəsindəki Qələbə Azərbaycan tarixində silinməz izlər buraxıb. Bunu AZƏRTAC-a müsahibəsində britaniyalı jurnalist Neil Vatson deyib....

Bax 7



## COVID pasportu olmayan metrodan istifadə edə biləcəkmi? - Şərtlər açıqlandı

## ABŞ və Fransanın ermənipərəst mövqeyi Azərbaycanı qane etmir



Bax13

Fransa və ABŞ son vaxtlar Qarabağın statusunun müəyyən edilməsinin vacibliyini təbliğ etməkdə son dərəcə fəallıq göstərirlər. Qarabağın statusu məsələsi üçtərəfli müqavilədə təsbit olunmamışdır...

## Ohanyan: "Yararsız təyyarə raketləri Paşinyan hakimiyyəti tərəfindən alınıb"



Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan Ermənistan Silahlı Qüvvələri üçün istifadə müddəti başa çatmış təyyarə raketlərinin alınması ilə...

Bax 10

## Vətəni, milləti satan xəyanətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar



Bax 14

## "Minsk Qrupuna ehtiyac yoxdur"



Bax 10

## "Bavariya" bu futbolçuya "elçi" düşüb...



Bax 16

# "Azərbaycan və Gürcüstan arasında siyasi dialoq həmişə fəal olub və indi də fəal olmaqda davam edir"

## *Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri ilə görüşüb*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Gürcüstanın Baş nazirini salamlayan Prezident İlham Əliyev bildirib ki, iki qardaş ölkə arasında siyasi dialoq həmişə fəal olub və indi də fəal olmaqda davam edir:***

-Hörmətli cənab Baş nazir, sizi görmək çox xoşdur. Azərbaycana xoş gəlmisiniz. Sizi ölkəmizdə yenidən görməyə şadam. Biz bu il artıq ikinci dəfədir ki, görüşürük. Həmçinin bizim ikitərəfli münasibətlərimizin mühüm məsələlərinin müzakirəsini apardığımız bir neçə telefon danışığımız olub. Bu gün biz dialoqumuzu davam etdirəcəyik. İki qardaş ölkə arasında siyasi dialoq həmişə fəal olub və indi də fəal olmaqda davam edir. Biz xarici siyasətlə bağlı məsələlərdə sıx əməkdaşlıq edirik, xüsusilə indi yeni çağırış və imkanlar olan regionumuzda.







Əlbəttə ki, ölkələrimiz arasında siyasi əlaqələrin gücləndirilməsi nəinki təkcə bizim xalqlarımız üçün, eyni zamanda, bütün region üçün önəmlidir. Mən bəzi məlumatlara nəzər saldım və gördüm ki, iqtisadi inkişaf sahəsində bizdə yaxşı irəliləyiş var, ticarət dövriyyəsi artır. Bu gün hökumətlərarası komissiyanın iclası olacaq. Mən əminəm ki, bu iclasda bir çox mühüm sahələr əhatə olunacaq, görülmüş işlərə nəzər salınacaq və gələcək addımlarımız planlaşdırılacaq.

Ölkənizdəki çox müsbət investisiya mühiti, sizə bir çox sosial və iqtisadi məsələləri həll etməyə imkan verən iqtisadi islahatlar bizi çox məmnun edir. Həmçinin hökumətinizi Gürcüstandakı bütün sahələrdəki inkişafla bağlı əldə etdiyiniz böyük uğur münasibətilə təbrik etmək istəyirəm. Biz dost və qardaş olaraq bu inkişaf proseslərini görməyə çox şadıq, yeni səylərinizdə şəxsən sizə və hökumətinizə uğurlar arzulayırıq.

Əlbəttə ki, biz bu gün neft və qaz, elektrik enerjisi, nəqliyyat sahələri kimi əməkdaşlığımızın ənənəvi sahələri haqqında da danışacağıq. Bunlar artıq həyata keçirilmiş layihələrdir və indi biz bu layihələrin faydasını görürük. Bu, bizim ölkələrimiz arasında əməkdaşlığın çox xüsusi formatını yaradıb. Çünki bu layihələr təkcə bizim ölkələrimiz üçün deyil, Avrasiya regionunda bir çox ölkələr üçün əhəmiyyət kəsb edir. Əminəm ki, bugünkü səfər əməkdaşlığımıza yeni təkan verəcək.

Dəvətimi qəbul edib ölkəmizə səfərə gəldiyiniz üçün sizə minnətdarlığımı bildirmək istəyirəm. Bir daha xoş gəlmisiniz!

Baş nazir İrakli Qaribaşvili:

-Cənab Prezident, bizi dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. Burada, Bakıda olmaqdan böyük məmnuniyyət hissi keçirirəm. Səmimi qəbula və qonaqpərvərliyinizə görə çox sağ olun. Bu, mükəmməl olan ikitərəfli əlaqələrimiz barədə danışmaq üçün böyük imkandır. Qeyd etdiyiniz kimi, biz dost, qardaşıq. Bu gün biz, həmçinin iqtisadi komissiyanın 8-ci iclasını keçirəcəyik və inkişafda olan ikitərəfli əlaqələrimizi müzakirə edəcəyik.

Gürcüstan sözsüz ki, siyasi, iqtisadi, mədəni və digər sahələrdə ikitərəfli əlaqələrimizin güclənməsində maraqlıdır. Biz, həmçinin regionda sülh və sabitliyin olmasında maraqlıyıq. Bu, güclü iqtisadi inkişafın təməli olacaq.

Bu, mənim bu il Azərbaycana artıq ikinci səfərimdir. Cənab Prezident, qeyd etdiyiniz kimi, biz dəfələrlə telefonla danışmışıq. Əminəm ki, bu gün biz gələcəyimizlə bağlı bir çox məsələləri müzakirə edəcəyik. Əminəm ki, bu, daha bir səmərəli görüş olacaq. Mən bir daha Sizə təşəkkür edirəm!

X X X

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili işçi nahar etdilər.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev 2021/2022-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

# Revanşistlərin puç olan xəyalları...

### Azərbaycan Prezidenti: "Hesab edirəm ki, revanşizm səylərindən vaz keçmək və gələcəyə doğru baxmaq üçün Ermənistana xəbərdarlıq etmək vaxtıdır"



44 günlük müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Bu dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu; Düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Ermənistan ordusu darmadağın edildi. Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi. Ermənistanın daxilindəki hazırkı biabırçı mənzərə və gərgin vəziyyət, Paşinyana qarşı artan etirazlar, bununla müqayisədə Ali Baş Komandan, Prezident İlham Əliyevin fəxrlə bəyannaməyə imza atması, Azərbaycan xalqının əhval-ruhiyyəsi, bayram sevinci kimin qalib, kimin isə məğlub olduğunu aydın şəkildə nümayiş etdirir. Bir sözlə, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Sübut edildi ki, Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağla bağlı heç bir qərar qəbul edilə bilməz.Bəli, dövlət başçımızın dediyi kimi, revanşizm səylərindən vaz keçmək və gələcəyə doğru baxmaq üçün Ermənistana xəbərdarlıq etmək vaxtıdır.Prezident İlham Əliyev "France-24" televiziya kanalına müsahibəsində aparıcının "Müharibənin ildönümü ilə əlaqədar müraciətinizdə Siz dediniz ki, "əgər biz erməni faşizminin bir daha baş qaldırdığını görsək, yeni təhlükə görsək, heç bir tərəddüd etmədən erməni faşizmini yenidən əzəcəyik". Bu, sülh mesajı kimi səslənmir, elə deyilmi sualını cavablandırarkən deyib: "Regionda sülhün bərqərar olunması ilə bağlı bizim mövqeyimizə gəldikdə, mən bir neçə dəfə açıq bəyanatlar vermişəm və yəqin siz internetə baxsanız onları tapa bilərsiniz. Bunlar xüsusilə sərhədlərin delimitasiyası və demarkasiyası üzərində işə başlamaqdan, Ermənistanla sülh sazişinin üzərində aparılacaq hərtərəfli danışıqlara hazırlaşmağa başlamaqdan ibarətdir. Bütün bunlar xoşməramlı jestlərdir".

Dövlətimizin başçısı həmçinin bildirib ki, bunların heç birinə Ermənistan rəhbərliyi tərəfindən adekvat cavab verilməyib: "Onlar ya bu təkliflərə məhəl qoymur, ya da ki, hazır olmadıqlarını deyirlər. Lakin mənim bəyanatım öz mənşəyini Ermənistanda müşahidə etdiyimiz tendensiyadan götürür. Bu siyasi istablişmentin bəzi dairələrində revanşizm tendensiyasıdır. Söhbət təkcə müxalifətdən getmir, iqtidardan da gedir. İntiqam almaq üçün ictimai bəyanatlardan və daha önəmlisi praktiki addımlardan, Ermənistanı militarizasiya etmək cəhdlərindən, bir məqsəd xatirinə edilən, müharibəyə yenidən başlamaq üçün yeni müasir avadanlıqlara çıxış əldə etmək cəhdlərindən gedir. Buna görə, mənim sözlərim kobud görünə bilər, lakin, bu sözlərin əsas məqsədi Ermənistan rəhbərliyi və Ermənistan siyasi istablişmentini istənilən revanşizm əlamətlərinə, xalqımıza, dövlətçiliyimizə və ərazi bütövlüyümüzə qarşı istənilən təhlükəyə cavab veriləcəyi haqqında xəbərdar etməkdən ibarət idi". Prezident İlham Əliyev vurğulayıb ki, onlar bizim necə cavab verdiyimizi bilir və İkinci Qarabağ müharibəsi onların bizim qarşımızda heç bir şansının olmadığını göstərdi: "Biz müharibəyə başlamaq istəmirik. Bu, bizə lazım deyil. Danışıqlar aparılan illər ərzində bu, bizə heç vaxt lazım olmayıb. Lakin indi hesab edirəm ki, revanşizm səylərindən vaz keçmək və gələcəyə doğru baxmaq üçün onlara xəbərdarlıq etmək vaxtıdır".

### "Biz, əlbəttə, bu ittihamları rədd edirik. Müharibə zamanı əsir götürülmüş bütün hərbi əsirlər Ermənistana qaytarılıb".

Azərbaycan Prezidenti "France-24" televiziya kanalına müsahibəsində "Hərbi əsirlərə gəldikdə, "Human Rights Watch" Azərbaycanı onları saxlamaqda, onlara işgəncə verilməsində ittiham edir. Buna cavabınız necə olardı? Xoşməramlı jest kimi, Ermənistanla onları mübadilə etməyə hazırsınızmı? sualını cavablandırarkən bildirib ki, Ermənistan hökuməti bunu təsdiq edə bilər: "Biz onları, hətta onlar bizim hərbi əsirləri qaytarmazdan əvvəl qaytardıq. QHT-lərin istinad etdiyi həmin şəxslərə gəldikdə, onlar müharibə başa çatdıqdan və noyabr Bəyannaməsi imzalandıqdan iki həftə sonra Ermənistanın hərbi komandirləri tərəfindən bizim mövqelərə doğru göndərilmişdilər və beləliklə, dörd azərbaycanlı hərbçini qətlə yetirərək cinayət törətmişlər. Onlar zərərsizləşdirildi və həbs olundular. Cinayətdə iştirakı olmayanların çoxu artıq qaytarılıb. Cinayət törədənlərə isə məhkəmələr tərəfindən cəza müəyyən edilib".

### "Münaqişə həllini tapıb, bu, mənim mövqeyimdir. Mən bu mövqeyi müdafiə edirəm. Mövcud reallıq onu nümayiş etdirir ki, bu, düzgün mövqedir"

"Mənim məsələnin həll edilmədiyini deyən həmin ölkələrə tövsiyəm odur ki, öz ərazilərində erməniləri yerləşdirmək və öz ərazilərində ikinci Ermənistan dövləti yaratmaq üzərində düşünsünlər". Bunu Prezidenti İlham Əliyev Fransanın "France-24" televiziya kanalına müsahibəsində "Siz Qarabağa muxtariyyət verməyə hazırsınız? Minsk qrupunun üzvü ABŞ hələ də bəyan edir ki, Qarabağ məsələsi öz həllini tapmayıb. Siz bəyan edirsiniz ki, məsələ həllini tapıb və Qarabağ sizə məxsusdur. Lakin illər ərzində bu münaqişədə vasitəçilik edən bir sıra ölkələr iddia edir ki, məsələ həll edilməyib" sualını cavablandırarkən deyib.

Dövlət başçısı bildirib ki, niyə onlar hesab edirlər ki, hər hansı hüquqi, siyasi və tarixi əsaslar olmadan Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmalıdır: "Mən deyəndə ki, münaqişə həllini tapıb, bu, mənim mövqeyimdir. Mən bu mövqeyi müdafiə edirəm. Mövcud reallıq onu nümayiş etdirir ki, bu, düzgün mövqedir. Münaqişənin həll olunmaması ilə bağlı istənilən bəyanat yersiz olmaqla yanaşı, təhlükəlidir. Münaqişə həll edilməyib deyənlər göstərsinlər ki, o, necə həll olunmalıdır. "Dağlıq Qarabağ" dedikdə onlar nəyi nəzərdə tuturlar? Hansı sərhədlər çərçivəsində, hansı ərazidə, hansı formada? Həmin sualları cavablandırmaq üçün eyham belə yoxdur. Bu səbəbdən münaqişənin həll edilmədiyini söyləmək qeyri-səmərəli və təhlükəlidir. Bu, o deməkdir ki, onu həll etmək üçün düşmənçilik xarakterli digər hərəkətlərə ehtiyac var. Sizin muxtariyyətlə bağlı sualınıza gəldikdə, Minsk qrupunun həmsədrləri 28 il sürən mənasız danışıqlarda Azərbaycanın mövqeyindən çox yaxşı xəbərdardırlar. Biz Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə təqdim etməyə hazır idik. Ermənilər hər zaman bunu rədd edirdilər. Onlar hər zaman "yox" deyirdilər - yalnız müstəqillik. İndi isə münaqişə başa çatdığından, onlar muxtariyyət haqqında danışırlar. Bu isə bizim gündəliyimizə daxil deyil. Bu gün Qarabağda Rusiya sülhməramlılarının məsuliyyət zonasında yaşayan ermənilər ölkəmizdə yaşayan digər etnik qrupların nümayəndələri kimi Azərbaycan vətəndaşlarıdır".

### "Azərbaycanın siyasi və coğrafi xəritəsində "Dağlıq Qarabağ" adlı vahid yoxdur"

Prezident İlham Əliyev Fransanın "France-24" televiziya kanalına müsahibəsində bildirib ki, "Mənim bəyanatlarımda siz heç vaxt ərazi iddialarının əlamətlərini tapa bilməzsiniz. Mənim nəzərdə tutduğum tarixi həqiqətdir. Bu, bir tarixi faktdır ki, 1920-ci ildə sovet hakimiyyəti Azərbaycanın ayrılmaz hissəsi olan Zəngəzuru qopararaq onun Ermənistana birləşdirilməsi ilə bağlı qərar qəbul edib və bu qərar icra olunub. Bu hadisə 1920-ci ildə baş verib - 101 il bundan əvvəl".

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları hələ də var: "Onlar hələ də iddia edirlər ki, "Dağlıq Qarabağ" bizə məxsus deyil. Onlar hələ də iddia edirlər ki, o, ya Ermənistana məxsusdur, ya da ki, "müstəqil" bir qurumdur. Azərbaycanın siyasi və coğrafi xəritəsində "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur. Belə bir qurum mövcud deyil. Beləliklə, Ermənistan ilk növbədə Azərbaycana qarşı istənilən ərazi iddiasını geri götürməli və özünü yaxşı aparmalıdır. Biz isə adekvat münasibət göstərəcəyik".

Bəli, Azərbaycan Prezidenti istər müsahibələrində, çıxışlarında, görüşlərində, istərsə də işğaldan azad olunmuş torpaqlara hər səfərində dönə-dönə bildirir ki, hər bir sahədə gücümüz də var, iradəmiz də var, cəsarətimiz də var. Yumruq da yerindədir: "Ermənistanda nə güc var, nə iradə var, nə hər hansı bir mənəvi haqq var ki, revanşist fikirlərlə yaşasın. Bu, onlar üçün özünəqəsddir. Bir daha demək istəyirəm, biz hələ ki, bu bəyanatları izləyirik. Biz hələ ki, təmkin göstəririk. Amma odla oynamasınlar. Onlar bizim yumruğumuzu görüblər. Bu yumruq yerindədir. Heç kim bizim qabağımızda dura bilməz. Əgər biz zərrə qədər təhlükə görsək, - zərrə qədər, - onları dərhal məhv edəcəyik. Elə yerindəcə məhv edəcəyik. Onlar da bunu bilirlər. Gücümüz də var, iradəmiz də var, cəsarətimiz də var. Yumruq da yerindədir".

Bəli, Azərbaycan Prezidentinin verdiyi mesajlar təkcə Ermənistana deyil, həm də bu ölkənin havadarlarına ünvanlanmışdı. Ölkə başçısı tam əminliklə qeyd edir ki, Dağlıq Qarabağ problemi artıq geridə qalıb, münaqişəni alovlandırmaq cəhdləri tamamilə əbəsdir. Eyni zamanda, hazırda Qarabağda yaşayan ermənilərə statusun verilməsindən söhbət gedə bilməz, bu məsələ birdəfəlik bağlanıb. Digər tərəfdən, Ermənistandan hansısa təxribat olacağı təqdirdə, Azərbaycan "Dəmir yumruğ"u yenidən işə salaraq, düşmənin dərsini verəcək. Zəngəzur dəhlizinin açılmasına gəlincə, ölkə başçısı regionu birləşdirəcək layihənin reallaşacağını, heç kimin ölkəmizin təşəbbüsünə mane ola bilməyəcəyini lazımı ünvanların diqqətinə çatdırmış oldu.

**RƏFİQƏ KAMALQIZI**

# “Azərbaycanda uğurlu dövlət gender siyasəti həyata keçirilir”

## YAP Mərkəzi Aparatında videokonfrans keçirilib

***Sentyabrın 29-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında ”Gender bərabərliyi və gender münasibətləri: Mövcud vəziyyət və prioritet istiqamətlər” mövzusunda videokonfrans keçirilib. SİA-nın məlumatına görə, tədbirdə giriş sözü ilə çıxış edən YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova bildirib ki, Azərbaycanda uğurlu dövlət gender siyasəti həyata keçirilir.***











Azərbaycanda gender məsələlərinin xalqımızın ümummilli lideri Heydər Əliyevin hər zaman diqqət mərkəzində olduğunu xatırladan Sədaqət Qəhrəmanova vurğulayıb ki, ulu öndər Heydər Əliyevin hakimiyyətinin bütün dövrlərində qadınlara göstərilən diqqət və qayğının artdığının şahidi olmuşuq. Məhz Onun ölkəmizə rəhbərliyi





dövründə Azərbaycan qadınları cəmiyyət həyatının müxtəlif sahələrində öz sözlərini deyə biliblər. Dövlət gender siyasətinin əsası da Ulu Öndərimiz tərəfindən qoyulub. Ulu öndərin fərmanı ilə 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, 2000-ci ildə dövlət qadın siyasəti ilə bağlı fərmanın imzalanması bu sahəyə xüsusi diqqətin ifadəsidir.

Onun sözlərinə görə, Ulu Öndərimizin müəyyənləşdirdiyi bu siyasət Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xüsusilə, dövlətimizin başçısının müvafiq fərmanı ilə 2006-cı ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması böyük əhəmiyyət kəsb edir. Heydər Əliyev ideyaları ətrafında sıx birləşən Azərbaycan qadınları Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyini, qayğısını hər zaman hiss edirlər. Göründüyü kimi, Azərbaycanda gender bərabərliyinin təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilib. Bu gün ölkəmizdə gender bərabərliyi diqqət mərkəzindədir və qadınlarımız da cəmiyyətin aparıcı hissəsinə çevrilib. Azərbaycan qadını kişilərlə yanaşı ölkəmizdə gedən ictimai, siyasi, iqtisadi, mədəni proseslərdə fəal iştirak edir.

Tədbirdə həmçinin AMEA-nın Fəlsəfə İnstitutunun ”Müasir Siyasətin fəlsəfəsi” şöbəsinin müdiri, professor Rəna Mirzəzadə ”Siyasi partiyaların fəaliyyətində gender bərabərliyi”, ”Sosial Hüquqların Araşdırılması” İctimai Birliyinin sədri Mais Əliyev ”Əmək hüquqları və gender bərabərliyi”, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və Sosial Analitik Araşdırmalar şöbəsinin müdiri, BMT-nin SEDAW komitəsinin sədr müavini Elgün Səfərov ”Gender stereotipləri və onlarla mübarizə yolları” və Sabunçu rayon İcra Hakimiyyəti başçısının müavini Rəna Fərəcova ”Gender zorakılığı və uşaqlara qarşı zorakılıq” mövzularında çıxış ediblər. Çıxışlarda vurğulanıb ki, hazırda həyata keçirilən gender siyasəti nəticəsində ölkəmizdə qadınların hərtərəfli inkişafı üçün zəruri şərait yaradılıb. Gənc nəslin tərbiyəsi, savadı, mədəniyyəti, zehni inkişafı, vətənpərvərliyi qadınlardan da çox asılıdır. Qadınlar kişilərlə bərabər ölkənin ictimai həyatında, iqtisadiyyat, mədəniyyət, elm, incəsənətin və digər sahələrdə da uğurla çalışırlar. Bu gün elə bir sahə tapmaq olmaz ki, orada qadın əməyi təmsil olunmasın. Bütün bunlar isə Azərbaycanda gender siyasətinin uğurlarıdır.

Çıxışlarda həmçinin, ölkəmizdə məişət zorakılığının qarşısının alınması istiqamətdə görülən işlərdən və bu yöndə mövcud qanunvericilik bazasının önəmindən bəhs olunub. Sonra tədbir diskussiya şəraitində davam edib, videokonfrans iştirakçılarının sualları cavablandırılıb.

# YAP GB-nın təşkilatçılığı ilə fəal gənclərlə görüş keçirilib



***Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə Gəncə şəhərində Partiyanın fəal gəncləri ilə görüş keçirilib. SİA-nın məlumatına görə, əvvəlcə şəhidlərimizin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Görüşdə YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxış edərək bildirib ki, artıq Vətən müharibəsinin başlamasının 1 ili tamam olur və qarşıdakı günlər ərzində biz tariximizə qızıl hərflərlə həkk olunmuş Zəfərimizin hər gününü böyük şərəf və qürur hissi ilə anacağıq.***

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin dəmir yumruq tək qətiyyəti düşməni döyüş meydanında məhv edərək böyük Qələbəni Azərbaycan xalqına bəxş etdi. Bu Qələbənin əldə olunmasında Azərbaycan gəncləri Ali Baş Komanındanın döyüş əmrinə cavab olaraq ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda səfərbər oldu. Şanlı Ordumuzun Azərbaycan oğullarının şücaət və qəhrəmanlıq dastanı daim Azərbaycan xalqı tərəfindən yaşadılacaq və gələcək nəsillərə ötürüləcək.

Qazanılan böyük Qələbə artıq ölkəmizlə bağlı bütün sahələrdə yeni reallıqlar yaradıb. Bu Qələbənin əbədiliyini, sarsılmazlığını qoruyub saxlamaq, daha güclü Azərbaycan naminə çalışmaq gənclərimizin üzərinə düşən tarixi məsuliyyət və vəzifədir.

B.İslamov bildirib ki, gənclərimiz ölkəmizlə bağlı həqiqətləri, xüsusilə işğalçı Ermənistanın uzun illər ərzində xalqımıza və torpaqlarımıza qarşı apardığı qəddar vandalizm siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmalıdır. Bu vəzifələrin öhdəsindən isə yalnız vətənpərvərlik və dövlətçilik dəyərlərinə sadiq, savadlı və yüksək ixtisaslı Azərbaycan gəncliyi gələ bilər. Görüşdə gəncləri maraqlandıran çoxsaylı suallar da cavablandırılıb.





# Dünya mətbuatı Azərbaycanda Anım Günü ilə bağlı keçirilən möhtəşəm tədbirlərdən yazır!







**Vətən müharibəsinin başlamasının ildönümü, Anım Günü dünyanın müxtəlif ölkələrinin aparıcı media qurumlarının da diqqət mərkəzində olub. Xəbərlərdə Anım Günü ilə bağlı Prezident İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi fikirlər, keçirilən müxtəlif tədbirlərlə əlaqədar informasiyalar yer alıb.**

AZƏRTAC xəbər verir ki, Anım Günü ilə bağlı xəbərlər qardaş Türkiyənin bütün aparıcı KİV-lərində geniş işıqlandırılıb. Anadolu Agentliyinin yaydığı "İkinci Qarabağ müharibəsinin ildönümündə şəhidlərin xatirəsi anıldı" sərlövhəli məqalədə Prezident İlham Əliyevin xalqa müraciəti zamanı qardaş Türkiyəyə Vətən müharibəsindəki dəstəyinə görə təşəkkür etdiyi bildirilir və dövlətimizin başçısının səsləndirdiyi fikirlərdən sitat gətirilir: "Qardaş Türkiyə və qardaş türk xalqı müharibənin ilk saatlarından Azərbaycanla həmrəy oldular, Azərbaycana öz dəstəyini göstərdilər. Türkiyə rəhbərliyi və əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən verilən açıqlamalar bizə çox böyük siyasi dəstək oldu, bizə əlavə güc verdi və biz bunu heç vaxt unutmayacağıq. 44 günlük Vətən müharibəsi bütün dünyaya Türkiyə-Azərbaycan birliyini bir daha göstərdi".

Türkiyənin "sabah.com.tr", "trthaber.com", "hurriyet.com.tr", "yenisafak.com", "ahaber.com.tr", "haberglobal.com.tr" və digər media platformalarında da Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad olunması ilə əlaqədar keçirilən tədbirlərdən, Anım Günündə Azərbaycan və Türkiyə prezidentləri arasındakı telefon danışığından bəhs edən materiallar verilib. Yazılarda, həmçinin Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Bakıda təşkil olunan yürüş barədə də çoxsaylı məlumatlar və fotolar təqdim edilib.

Gürcüstanın aparıcı KİV-ləri də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 27 sentyabr - Anım Günü ilə bağlı xalqa müraciətinə, ölkəmizdə keçirilən anım tədbirlərinə geniş yer verib. Bu ölkənin "gaxa.ge", "report.ge", "24news.ge", "interpress.ge", "aktual.ge" informasiya resurslarında dərc edilən xəbərlərdə dövlətimizin başçısının xalqa müraciətində Vətən müharibəsi və onun nəticələri ilə bağlı səsləndirdiyi fikirlərə istinad edilir.

Ukraynanın media resursları da Anım Günü ilə bağlı materiallar verib. "Ukrinform" saytının verdiyi məlumatda bildirilir ki, Anım Günü ilə bağlı Azərbaycanda bir sıra tədbirlər keçirilib, məscidlərdə, kilsələrdə, sinaqoqlarda Vətən müharibəsində həlak olan qəhrəmanların ruhuna dualar olunub. Qeyd olunur ki, Anım Günü paytaxt Bakıda yürüş təşkil olunub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da yürüşdə iştirak ediblər.













Materialda Bakıda Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməlinin də qoyulduğu diqqətə çatdırılır. Bu ölkənin "podrobnosti.ua", "newformat.info" saytlarında da Anım Günündə Bakıda keçirilən yürüşlə bağlı informasiyalar verilib.

Rusiyanın "rbc.ru", "sng.today", "news.ru", "vestikavkaza.ru", "info24.ru" və digər media resurslarında da paytaxt Bakıda Anım Günü ilə əlaqədar keçirilən yürüş ilə bağlı informasiyalar verilib. Qonşu ölkənin "TASS", "Ria Novosti", "lenta.ru" saytlarında verilən materiallarda isə Prezident İlham Əliyevin Anım Günü ilə bağlı xalqa müraciəti zamanı səsləndirdiyi fikirlərə geniş yer ayrılıb.

Moldovanın nüfuzlu KİV-lərində də Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Bakıda keçirilən yürüş geniş işıqlandırılıb. "point.md", "noi.md", "tribuna.md", "bloknot-moldova.md", "jurnal.md" xəbər portallarında dərc olunan məqalələrdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın da iştirak etdikləri yürüş və ölkəmizdə keçirilən digər anım tədbirləri ilə bağlı ətraflı məlumatlar yer alıb.

*Ardı Səh. 6*

# Dünya mətbuatı Azərbaycanda Anım Günü ilə bağlı keçirilən möhtəşəm tədbirlərdən yazır!




Əvvəli-Səh-5

Anım Günü ilə bağlı tədbirlər Pakistanın "dnd.com", Almaniyanın "stern.de", İspaniyanın "EFE", İsrailin "Yerusəlim Post", Əlcəzairin "Əl-Vasit Əl-Mağaribi" media resurslarında da Vətən müharibəsinin başlanmasının ildönümü və Azərbaycanda keçirilən anım tədbirləri ilə bağlı informasiyalar verilib.

Bundan başqa, İspaniyanın EFE informasiya agentliyində, İsveçrə ictimai teleradio yayım korporasiyasının (SRG SSR) ispandilli SWI swissinfo.ch versiyasında, eldiario.es, eluniverso.com xəbər portallarında "Azərbaycan Dağlıq Qarabağda müharibənin başlanmasının ildönümünü qeyd edir" sərlövhəli məqalə dərc olunub.

Yazıda bir il bundan əvvəl sentyabrın 27-də Qarabağ müharibəsinin başlanması diqqətə çatdırılır. Qeyd olunur ki, 44 gün davam etmiş bu müharibə Azərbaycanın Qələbəsi ilə başa çatıb. Azərbaycan 30 il müddətində Ermənistanın işğalı altında olmuş torpaqlarını geri qaytarıb. İspandilli nəşrlər Prezident İlham Əliyevin xalqa televiziya müraciətindən sitatlar gətirir: "Biz bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır". "Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".

Amerikada çıxan "Foreign Policy News" nəşrində "Ermənilər və azərbaycanlılar 44 günlük Qarabağ müharibəsinin ildönümünü qeyd edirlər" sərlövhəli məqalə dərc olunub.

Məqalədə sentyabrın 27-də keçən ilin həmin günündə başlanmış silahlı münaqişənin birinci ildönümünün Azərbaycanda və Ermənistanda qeyd olunmasından bəhs edilir. 44 gün davam etmiş müharibə nəticəsində Azərbaycan Qarabağın xeyli hissəsi üzərində nəzarəti bərpa etməyə nail olub. Qarabağda vəziyyət hələ 2020-ci il iyul ayında gərginləşməyə başlamışdı. O vaxt erməni qoşunları Qarabağda əsas münaqişə zonasından xeyli uzaqda yerləşən Tovuz rayonunda Azərbaycan ordusunun mövqelərinə hücum etdilər. Avqust ayında Qarabağda təmas xəttində ermənilərin təxribat qrupu zərərsizləşdirildi. Nəhayət, 2020-ci il sentyabrın 27-də Azərbaycanın təmas xətti boyunca




yerləşən yaşayış məntəqələri artilleriya atəşlərinə məruz qalandan sonra Azərbaycan tammiqyaslı əks-hücuma keçdi.

Altı həftə davam etmiş bu silahlı münaqişə müddətində Azərbaycan Ermənistanın rəhbərliyinə danışıqlar masası arxasına qayıtmağı, Dağlıq Qarabağ ətrafındakı rayonları tərk etməyi və sülh danışıqlarına başlamağı təklif edirdi. Azərbaycan Prezidenti İlham Əliyev bəyan edib ki, onun ölkəsi BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, işğalçı erməni qoşunlarının Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmasını tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələrini yerinə yetirir, BMT Nizamnaməsinin BMT üzvü olan dövlətə özünümüdafiə hüququ verən 51-ci maddəsində müvafiq hərəkət edir.

Məqalədə vurğulanır ki, erməni qoşunlarının çıxarılması qrafikini müəyyən etmək barədə Bakının təklifi ermənilər tərəfindən qəbul edilmədi. Erməni tərəfi tam səfərbərlik elan etməklə bərabər, yaxın mənzilli ballistik raketlərlə Azərbaycanın Gəncə və Bərdə kimi iri şəhərlərinə hücum etdi. Nəticədə Azərbaycanın 100-ə yaxın dinc vətəndaşı həlak oldu. Azərbaycanın cavabı kifayət qədər sürətli, lakin müharibə qaydaları çərçivəsində olub. Bakı hərbi obyektlərə zərbələri gücləndirdi və iri yaşayış məntəqələrindən, o cümlədən azərbaycanlıların mədəni paytaxt hesab etdikləri alınmaz qala Şuşa şəhərindən erməni qoşunlarını qovdu.

Məqalədə daha sonra deyilir ki, Azərbaycan Prezidentinin bu həftə bəyan etdiyinə görə Şuşada yeni müasir evlər tikiləndən sonra bu şəhərin sakinləri bir il ərzində öz torpaqlarına qayıda biləcəklər. Əgər Qarabağ erməniləri yenidən Azərbaycan vətəndaşları olmağa razılaşalar, rəsmi Bakı onların Azərbaycan cəmiyyətinə reinteqrasiya olunacağını vəd edib.

Bundan başqa, Misirin "Rayetmısr", "Əl Diplomasi", Küveytin "Q8Press" portallarında və İordaniyanın "Nayrouz" agentliyinin saytında azərbaycanlı şərqşünas Həşim Məmmədovun "Azərbaycan xalqının Zəfər sevinci" sərlövhəli məqaləsi yayımlanıb.

Yazıda Azərbaycanın dəfələrlə Ermənistana təxribatçılıq əməllərinə son verməyə dair çağırışlar etdiyi, lakin işğalçı ölkənin sülh prosesini pozaraq Azərbaycanı müharibəyə sürükləmək cəhdini davam etdirdiyi qeyd olunur. Müəllif yazır ki, davam edən COVID-19 pandemiyasına baxmayaraq, Ermənistan BMT-nin atəşkəslə bağlı qlobal çağırışını pozaraq, 2020-ci il sentyabrın 27-də növbəti hərbi təxribat törədib. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edərək bildirib: "Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu öz torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaq".

Məqalədə diqqətə çatdırılıb ki, erməni təxribatından sonra başlayan Vətən müharibəsi 44 gün sonra şanlı Ordumuzun Zəfəri ilə başa çatıb və düşmən təslim sənədini imzalayıb. Bununla da xalqımız otuz ildən bəri gözlənilən Qələbə sevincini yaşadı. Döyüş meydanında əldə olunan bu qələbələr nəticəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqla Ordunun birliyini və ümumiyyətlə, dünya azərbaycanlılarının həmrəyliyini hamımız bir daha hiss etdik və gördük.

Müəllif yazır ki, dünya azərbaycanlıları düşmən üzərində bu tarixi Zəfəri böyük sevinclə qeyd edir. Azərbaycan xalqı və Ordusu Müzəffər Ali Baş Komandanın ətrafında hər zaman bir yumruq kimi birləşib. İkinci Qarabağ müharibəsində Prezident İlham Əliyevin diplomatik addımları və qaldırdığı yumruq Azərbaycan Ordusu üçün əzm rəmzinə çevrildi və əsgərlərimizə böyük ruh yüksəkliyi verdi.

Bu gün dünya azərbaycanlıları Ordumuzun torpaqlarımızı işğaldan azad etməsinə görə ən xoş anlarını yaşayır və azərbaycanlı olmaları ilə qürur hissi keçirirlər. Müharibə günlərində dinc əhaliyə qarşı törədilən erməni vandallığı xalqımızı düşmənə qarşı daha sıx birləşdirdi.

Habelə, Avstraliyanın "Vibe-Media" xəbər portalında 44 günlük Vətən müharibəsi haqqında məlumatlar, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müvafiq bəyanatına istinadlar və Azərbaycanda keçirilən tədbirlər barədə məlumatlar yerləşdirilib. Məlumatlarda həmin sənədə istinadla Azərbaycanın beynəlxalq hüququn prinsiplərinə, xüsusilə də suverenliyi, ərazi bütövlü-




yü və beynəlxalq sərhədlərin toxunulmazlığına ciddi riayət etməklə Ermənistanla münasibətləri normallaşdırmağa hazır olduğu qeyd edilir. Ermənistan hökuməti bölgədə sülhü, təhlükəsizliyi, firavanlığı qorumağa və beynəlxalq öhdəliklərə riayət etməklə bu əsas prinsiplərə hörmət etməyə çağırılır.

Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun Qələbəsi ilə başa çatan Vətən müharibəsinin Azərbaycan tarixində yeni bir dövr açdığı, Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyduğu, BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli müvafiq qətnamələrinin icrasının təmin edildiyi qeyd olunur.

Azərbaycan ərazilərinin işğalının sona çatmasının Ermənistanın onilliklər ərzində həyata keçirdiyi qanunsuz fəaliyyətlərin tam miqyasını, xüsusilə Azərbaycanın tarixi, mədəni və dini irsinin qəsdən məhv edilməsi və mənimsənilməsi, təbii sərvətlərinin talan edilməsi, infrastrukturun dağıdılması və digər beynəlxalq hüquq pozuntuları kimi çoxsaylı hərbi cinayətlərinə dair dəlilləri ortaya çıxardığı məlumatda bildirilir.

Beynəlxalq humanitar və insan hüquqları haqda qanunları pozduğuna görə Ermənistanı məsuliyyətə cəlb etmək üçün Azərbaycanın Avropa İnsan Hüquqları Məhkəməsinə və Beynəlxalq Ədalət Məhkəməsinə müraciət etdiyi də məlumatda əksini tapıb.

Azərbaycan hökumətinin bir milyona yaxın didərgin düşmüş azərbaycanlının təhlükəsiz və ləyaqətli şəkildə öz vətənlərinə geri qaytarılması məqsədilə işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işləri apardığı, bölgədə davamlı sülhün və təhlükəsizliyin təmin edilməsi üçün bütün zəruri tədbirləri gördüyü qeyd edilir. Saytda 27 Sentyabr - Anım Günündə Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan bütün şəhidlərin xatirəsinə ehtiram məqsədilə Azərbaycanda keçirilən tədbirlər barəsində də məlumat yer alıb.

Bundan əlavə, XİN-in Anım Günü ilə bağlı bəyanatı səfirliyin akkreditə olunduğu Avstraliya və Yeni Zelandiya XİN-lərinə, Fici Respublikasının səfirliyinə, eyni zamanda, Avstraliyada akkreditə olunmuş digər diplomatik missiyalara və beynəlxalq təşkilatlara, Avstraliya Federal Parlamentinin bütün millət vəkilləri və senatorlarına göndərilib.

Həmçinin Avstraliya və Yeni Zelandiyada məskunlaşan icma üzvlərinin iştirakı ilə onlayn formatda anım mərasimi keçirilib. Tədbirdə Avstraliya Azərbaycan Assosiasiyası və Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyinin rəhbərləri və digər icma üzvləri iştirak ediblər.

Nüfuzlu İtaliya mətbuat orqanlarında da 27 Sentyabr - Anım Günü ilə əlaqədar çoxsaylı məlumatlar dərc edilib. "Askanews", "Yahoo Notizie", "Kmetro0", "Agenzia Nova" kimi mətbuat orqanları Azərbaycan Xarici İşlər Nazirliyinin Anım Günü ilə əlaqədar bəyanatını yayıb.

Habelə Anım Günü ilə bağlı İtaliyada keçirilmiş anım mərasimləri də yerli mətbuatın diqqətində olub. "Giornale Diplomatico", "Askanews", "Notizie Yahoo", "Globus Magazine", "Metroct", "İl Corriere di Sicilia", "Agenzia Nova", "Kmetro0" kimi mətbuat orqanlarında Roma şəhərində yerləşən İtaliya İslam Mədəniyyət Mərkəzi-Roma Böyük Məscidində, "Santa Maria della Mercede" kilsəsində, habelə Kataniya şəhərində yerləşən "San Camillo dei Mercedari" kilsəsində keçirilmiş anım mərasimləri barədə məlumatlar dərc olunub.

Eyni zamanda, "Agenzia Nova" xəbər agentliyinin saytında Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadənin Anım Günü ilə əlaqədar geniş müsahibəsi də yayılıb. Müsahibədə diplomat Anım Gününün əhəmiyyəti, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzünün ağır nəticələri, Vətən müharibəsi və torpaqlarımızın işğaldan azad edilməsi, həmin ərazilərdə həyata keçirilən yenidənqurma işləri və bölgədə davamlı sülhün bərqərar olması üçün ölkəmizin həyata keçirdiyi tədbirlərdən danışıb.

# “Azərbaycan xalqının Vətən müharibəsində qazandığı Zəfər bütün türk dünyası üçün mühüm əhəmiyyət daşıyır”

## *Sahibə Qafarova Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevlə görüşüb*



Milli Məclisin sədri Sahibə Qafarova rəsmi səfəri çərçivəsində sentyabrın 29-da paytaxt Nursultan şəhərində Qazaxıstan Respublikasının birinci Prezidenti - elbası Nursultan Nazarbayevlə görüşüb.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin nümayəndə heyətini mehribanlıqla salamlayan Qazaxıstan Respublikasının birinci Prezidenti - elbası Nursultan Nazarbayev Azərbaycanda gedən prosesləri diqqətlə izlədiyini bildirib. Azərbaycan xalqının Vətən müharibəsində qazandığı Zəfərin bütün bölgə üçün, türk dünyası üçün mühüm əhəmiyyət daşıdığını vurğulayaraq bir daha təbriklərini çatdırıb. O, müasir müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevlə bağlı xoş xatirələrini yada salıb. Nursultan Nazarbayev son 30 ildə ölkəmizdə aparılan abadlıq-quruculuq işlərini, iqtisadi tərəqqini, dövlət quruculuğunun müxtəlif sahələrində uğurla həyata keçirilən islahatları yüksək dəyərləndirib.

Nursultan Nazarbayev qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü xarici siyasət, bölgədə sülhün və sabitliyin təmin olunmasına yönəlmiş addımlar, yeni reallıqlar şəraitində nəqliyyat dəhlizlərinin açılması beynəlxalq aləmdə Azərbaycan dövlətinin nüfuzunu çox gücləndirib.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını elbası Nursultan Nazarbayevə çatdıran Milli Məclisin sədri qazax xalqının yetirdiyi bu böyük şəxsiyyətlə Azərbaycanın ümummilli lideri Heydər Əliyev arasındakı dostluqdan söz açıb. Xalqlarımız arasında qardaşlıq münasibətlərinin və qarşılıqlı etimadın möhkəmlənməsində bu iki böyük şəxsiyyətin danılmaz xidmətləri olduğunu vurğulayıb.

Azərbaycan-Qazaxıstan münasibətlərinin tarixində Prezident İlham Əliyevin Nursultan Nazarbayevlə hər görüşünün xüsusi səhifə təşkil etdiyini bildirən Sahibə Qafarova bu görkəmli dövlət xadiminin 2017-ci ildə ölkəmizə rəsmi səfəri zamanı Azərbaycanın dövlət başçısı İlham Əliyev tərəfindən ”Heydər Əliyev” ordeni ilə təltif edilməsini məmnunluqla yada salıb.

Görüş zamanı spiker Azərbaycan və qazax xalqlarının müstəqillik dövründə çətin mərhələlərdən keçdiyini deyib. O bildirib ki, gələn il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunacaq.

Azərbaycan parlamentinin rəhbəri əlaqələrimizin genişlənməsində parlamentlərarası əməkdaşlığın mühüm rolundan, ”Azərbaycan Respublikasının Milli Məclisi ilə Qazaxıstan Respublikası Parlamenti Məclisi arasında əməkdaşlıq haqqında Saziş”in əhəmiyyətindən danışıb. Hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyət göstərdiyini, deputatlarımızın beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq etdiyini bildirib.

Görüşdə Sahibə Qafarova Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevin türk xalqlarını bir araya gətirmək təşəbbüslərinin yüksək dəyərləndirildiyini vurğulayıb. Xalqlarımızın daha sıx münasibətlər qurmasında, Azərbaycan-Qazaxıstan əlaqələrinin möhkəmlənməsində, qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsində TÜRKPA-nın və TÜRKSOY-un, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaratdığı imkanları xüsusi qeyd edib.

Azərbaycan tarixinin şanlı səhifəsi olan Vətən müharibəsindən söhbət açan Sahibə Qafarova 44 günlük müharibədə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun Ermənistana layiqli cavab verdiyini, ölkəmizin ərazi bütövlüyünü bərpa etdiyini, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini həyata keçirdiyini vurğulayıb. S.Qafarova 2020-ci ilin 10 noyabrında Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanan üçtərəfli Bəyanatla münaqişəyə son qoyulduğunu deyib. İşğal illərində Qafqazın Xirosimasına çevrilmiş ərazilərin bərpası və yenidən qurulması sahəsində görülən işlər barədə məlumat verib. Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Britaniyalı jurnalist: ”İkinci Qarabağ müharibəsindəki Qələbə Azərbaycan tarixində silinməz izlər buraxıb”



***Qırx dörd gün davam edən İkinci Qarabağ müharibəsindəki Qələbə Azərbaycan tarixində silinməz izlər buraxıb. Bunu AZƏRTAC-a müsahibəsində britaniyalı jurnalist Neil Vatson deyib. Jurnalist bildirib: "27 Sentyabr - Anım Günü Azərbaycanı Qələbəyə aparan tarixin başlanğıcıdır. Bu, Azərbaycan tarixində çox əhəmiyyətli bir gündür. İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı uğurlara görə sevinirəm və bu uğurun davamlı olmasını arzulayıram.***

Vatson söyləyib ki, 30 ildən sonra tarixi Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi Azərbaycan Ordusunun nə qədər güclü olduğunu dünyaya bir daha sübut edib. Azərbaycan beynəlxalq hüquqa riayət edərək öz torpaqlarını işğaldan azad edib. Doğma torpağından didərgin düşmüş 1 milyondan çox azərbaycanlının yenidən öz evinə qayıtması xəbəri isə bu ərazilərdə ədalətin bərpa olunduğunu göstərir”. Britaniyalı jurnalist xalqımız Qələbə münasibətilə təbrik edib, regionda sülhün davamlı olmasını arzulayıb.

## DSX rəhbərliyi İkinci Şəhidlər xiyabanını ziyarət edib





Vətən müharibəsinin ildönümü münasibətilə sentyabrın 28-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev və qurumun rəhbər heyəti İkinci Şəhidlər xiyabanını ziyarət ediblər.

DSX-dən SİA-ya bildirilib ki, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə qovuşmuş Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilmiş, məzarları üzərinə gül dəstələri düzülüb.

## David Zalkaliani: Gürcüstan Baş nazirinin Azərbaycana səfəri çox uğurlu oldu

Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana səfəri çox uğurlu oldu. Bu, son üç ayda ikinci səfər idi. Birinci səfər rəsmi səfər idi və həmin vaxt bizim ikinci səfərimizin həyata keçirilməsi ilə bağlı vacib qərar qəbul olundu.



AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan Baş nazirinin müavini, xarici işlər naziri David Zalkaliani İrakli Qaribaşvilinin Bakıya səfərinin yekunlarını şərh edərkən söyləyib.

”Bilirsiniz ki, Azərbaycan-Gürcüstan Hökumətlərarası İqtisadi Komissiyasının iclası müxtəlif səbəblərdən son 10 ildir keçirilmirdi. Bakıya birinci səfərimizdən üç ay sonra biz sayca 8-ci iclasın keçirilməsinə nail olduq. Azərbaycan bizim strateji tərəfdaşımız və çox vacib qonşumuzdur. İkitərəfli münasibətlərimizin bütün sahələrdə inkişafı bizim üçün mühüm əhəmiyyət kəsb edir”, - deyə Zalkaliani vurğulayıb. Onun sözlərinə görə, Bakıda keçirilən görüşlərdə müzakirə olunan məsələlər həm iki ölkə, həm də region dövlətləri üçün mühüm əhəmiyyətə malikdir. David Zalkaliani, həmçinin qeyd edib ki, hökumətlərarası komissiyanın iclasında bir sıra sənədlər imzalanıb. Bu sənədlər regionda uzunmüddətli sülhün qorunub saxlanmasına, vacib infrastruktur layihələrinin həyata keçirilməsinə yönəlib.

# ABŞ-ın Azərbaycandakı s

***ABŞ demokratları Ağ evə bu gün də nəticələri şübhəli görünən prezident seçkiləri nəticəsində yiyələndikdən sonra bütün türk dünyasına və xüsusilə də, Azərbaycana qarşı açıq-aşkar qərəzçilik və aşırı ədalətsizlik mövqelərini nümayiş etdirməkdədirlər. Əgər respublikaçıların hakimiyyətləri dövrlərində qərəzli mövqelər əsasən qanunvericilik orqanında tüğyan edirdisə, artıq eyni münasibət dövlət departamenti tərəfindən də aydın şəkildə nümayiş etdirilir.***



Hazırda demokratlar tərəfindən müxtəlif səviyyələrdə Azərbaycana qarşı tam əsassız və təxribat xarakterli bəyanatlar verilir, bu da azmış kimi, ölkəmizin qarşısında qəbuledilməz tələblər qoyulur. Şübhəsiz ki, Azərbaycana qarşı bu cür hücumların əsas səbəbi tarixi və hüquqi baxımdan Azərbaycana məxsus ərazilərin qələbə ilə nəticələnmiş müharibə yolu ilə azad edilməsi olmuşdur. Bu qələbə əlbəttə ki, həm bəlli düşməni, həm də onun qayğısına qalan məlum havadarlarını ciddi şəkildə narahat edir, təlaşlandırır.

Özlərini "dünyanın ağası" kimi hiss edən, hətta zaman-zaman bunu dillərinə belə gətirməkdən çəkinməyən ABŞ-ın siyasi dairələri, sadəcə, bunu heç cür həzm edə bilmirlər. Axı necə ola bilər, onların iştirakı olmadan uzun illər dalana dirənən, həlli mümkünsüz görünən bir münaqişə cəmi 44 gün içində həll olundu!

Biz dəfələrlə ABŞ-n müxtəlif siyasi dairələri tərəfindən bütün Azərbaycana qarşı aparılan təzyiq, təsir siyasətləri haqqında mütəmadi olaraq və danılmaz faktlara əsaslanan yazılarımızla çıxışlar etmişik. Bu gün də bir nəzərəçarpan və hiddət doğuran faktı yenidən xatırlatmaq yerinə düşərdi: söhbət ABŞ-ın Ermənistandakı səfiri, özünü az qala Ermənistanın söz sahibi hesab edən Linn Treysidən gedir...

Bu, həmin Linn Treysidir ki, gah Qərbi Zəngəzura gedərək erməni hərbçiləri ilə birlikdə Azərbaycanın ərazilərinə binoklla baxır, gah göstərişlərini verir, gah da Qarabağın heç vaxt olmayacaq (!) "statusu" ətrafında sərsəm bəyanatlar səsləndirir.

Lakin bu fonda daha bir sual, yaxud məqam növbəti düşündürücü nüansı ortaya çıxarır: əcəba, bəs ABŞ-ın Azərbaycandakı Səfiri Örl Litzenberqer niyə ağzına su alaraq oturub və Ermənistandakı diplomat həmkarının həddini aşan bəyanatlarına qarşı ən azından yüngül irad da olsa tutmur? Axı bütün hallarda səfirlər təyin olunarkən onlar etimadnamə təqdim edirlər və çalışdıqları ölkələr də onların etinadnamələrini qəbul edir, yəni etimad göstərirlər! Bəs hansı qarşılıqlı etimad, etibar gerçəkliyi, niyə biz bunları görmür və müşahidə etmirik? Necə olur ki, insan haqları, seksual azlıqları və sair məsələlərdə bu cənab bəyanatlar verir, amma birbaşa səlahiyyətlərinə aid regionun ən əsas, həssas siyasi məsələsinin həllinə qarışmır?!

Qeyd edə bilərik ki, hazırda onun funksiyalarını, faktiki olaraq,




ABŞ-ın Dövlət departamentinin ən nüfuzsuz və fırıldaqçılığı ilə tanınan əməkdaşı Filip Riker yerinə yetirir. Onda növbəti sual yaranır: bəs nə baş verir?

Əslində, səthi təhlil belə müəyyən suallar doğuran məsələlərə kifayət qədər aydınlıq gətirməyə imkan yaradır. Məsələ burasındadır ki, ABŞ-ın xarici xidmət qaydalarına əsasən, səfirlər təyinat ölkələrində 3 il xidmət edirlər və nəzərə alsaq ki, Örl Litzenberqer indiki vəzifəsinə 2 yanvar 2019-cu ildə təyin olunub, bu zaman aydın olur ki, onun müddətinin başa çatmasına cəmi 3 ay qalır.

Digər ciddi məsələ isə odur ki, Dövlət departamenti bir qayda olaraq səfirlərin yeni vəzifələrə təqdimatını sentyabr-oktyabr aylarında irəli sürürlər. Yəni növbəti bir ay ərzində ABŞ Azərbaycana təyin edəcəyini yeni səfirinin adını açıqlayacaq, eləcə də Örl Litzenberqerin növbəti missiya ilə hansı ölkəyə gedəcəyi müəyyən olunacaq. Beləliklə, cənab Litzenberqer ABŞ-ın Azərbaycana qarşı olan ziddiyyətli qərarlarına münasibət bildirməməklə, sadəcə, özünün gələcək təyinatının hara olacağı barədə fikirləşir ki, daha bir uğurlu yerə göndərilsin.

Lakin onu da nəzərə alsaq ki, hazırda ABŞ səfirlərinin təyinat məsələsi qondarma erməni soyqırımının ABŞ tərəfindən tanınmasının əsas lobbiçilərindən biri olan Bob Menendesin səlahiyyətlərinə daxildir, onda cənab Litsenberqerin passivliyinin səbəbi daha çox aydın olmağa başlayır.

Amma bu da son deyil. Digər bir maraqlı məlumat cənab Litzenberqerin Azərbaycana təyinatı ilə bağlıdır. Belə ki, Örl Litzenberqerin Azərbaycana səfir təyin olunması ABŞ-ın ermənilərin tam nəzarətində olan Xarici Əlaqələr Komitəsi tərəfindən uzun müddət yubadılırdı.




Məqsəd, Azərbaycanla yaxşı əlaqələri olan Tramp administrasiyasının regiondakı fəaliyyətini əngəlləmək və Azərbaycan iqtidarını qıcıqlandırmaq idi. Yalnız Litzenberqerin komitənin şərtlərini qəbul etməsinə əmin olduqdan sonra, onun namizədliyinə "yaşıl işıq" yandıran Bob Menendes ona belə bir tapşırıq vermişdi: "Mən cənab Litzenberqerin namizədliyini dəstəkləyirəm və gözləyirəm ki, onunla sıx və davamlı dialoq aparacağıq və biz azərbaycanlıları necə inandıraq ki, onlar Dağlıq Qarabağla (?!-R.R.) təmas xəttində təhlükəli davranışlardan çəkinsinlər..." (???!!!-R.R.)

Görünən budur ki, Azərbaycanın öz taleyini amerikalıların maraqlarına sədd qoymaqla onların əlindən öz əllərinə alıb torpaqlarını azad etməsi, səfir Litzenberqeri faktiki olaraq Bob Menendesin yanında başıaşağı edib. Belə ki, ona verilən tapşırığı yerinə yetirə bilməyib və indi də taleyi sual altında qalıb. O səbəbdən də Litzenberqer özünü rəhbərliyinin qarşısında necə deyərlər, "quzu kimi" aparır ki, bəlkə ona güzəştə gedələr, karyerasının irəliləməsinə şərait yaradalar.

Bob Menendesin isə ermənilərlə bağlılığı yalnız ideoloji dəstəklə yekunlaşmır. Onun ermənilərlə həm də intim bağlılığı var. Belə ki, 3 oktyabr 2020-ci ildə Bob Menendes erməni Nadine Arslanyanla uzun illər sevişdiyindən sonra rəs-

# səfiri niyə susur?



mi nikaha daxil olub və Nadinenin dediklərinə görə, Bob bütün günü Nadineye mahnılar oxuyur. Hətta bu "eşq" anlarından birini YouTube sosial şəbəkə kanalında yerləşdiriblər:

https://www.youtube.com/watch?v=uOlaPijJwx8&t=20s

Odur ki, ermənilərin ABŞ-da nəinki Kim Kardaşyan kimi "analaı" var, onların həmçinin Nadine kimi "xalaları" da var. Belə çıxır ki, səfir Litzenberqer Bobdan deyil, bəlkə də elə Nadinedən qorxur.

Eyni zamanda, ABŞ mətbuatında gedən məlumatlara görə, Səfir Litzenberqerə, ümumiyyətlə, Azərbaycanın qələbəsi haqqında danışmaq qadağan edilib. Belə ki, onun keçən il Mikayıl Cabbarovla görüşündən sonra konqresmen Bred Sherman qəzəbli məktub göndərərək "izahat verməyi" tələb etmişdi.

Bu da həmin məktubun mətni:

Bu məktubdan dərhal sonra səfir Litzenberqer dövlət qurumları ilə rəsmi görüşləri dayandırdı və tam şəkildə kölgəyə çəkildi. Əlbəttə ki, bu, çox cəsarətsiz bir davranışdır. Xüsusən, nəzərə alsaq ki, səfir Litzenberqerin türklərlə müəyyən genetik bağlantısı var. Belə ki, səfir Litzenberqer etnik mənsubiyyətinə görə aşkenazi yəhudilərindəndir və bir çox alimlərin fikrincə, aşkenazi yəhudiləri öz kökünü qədim türk dövləti olan Xəzər xaqanlığından götürüb.

Digər maraqlı fakt isə ondan ibarətdir ki, səfir Litzenberqer özünün ABŞ-ın hansı regionunda do-



ğulub böyüdüyü faktları açıqlamağa çalışır. Bunun səbəbi odur ki, o, ABŞ-ın Kaliforniya ştatını təmsil edir və hamı da bilir ki, ermənilərin ABŞ-da ən çox yaşadığı ştat məhz Kaliforniyadır. Son siyahıyaalmalara görə, Kaliforniyada 200 mindən çox erməni yaşayır. Görünür, səfir Litzerberqer hesab edir ki, ölkəmizdə onun erməni-

rin içində böyümüş bir şəxs olduğu üzə çıxsa, ona münasibət fərqli olacaqdır. Amma cənab səfir bilməlidir ki, biz ermənilərdən fərqli olaraq insanların keyfiyyətini, onların doğulduğu yerə, milli mənsubiyyətinə və digər subyektiv amillərlə ölçmürük. Bizim xalq insanlara dəyəri onların davranışı və düzgün mövqe nümayiş etdirmək bacarığına görə verir. Əbəs deyil ki, azərbaycanlılar dünyanın ən tolerant və multikultural xalqı kimi etalon olaraq göstərilir!

Amma bu da yekun maraqlı fakt deyil. Belə ki, Litzenberqerin və ABŞ-ın Ermənistandakı səfiri Linn Treysi ABŞ Konqresi tərəfindən eyni gündə təsdiq olunmuşdular-2 yanvar 2019-cu ildə. Və bu fakt Linn Treysinin canfəşanlığını əsaslandıran faktlardan biridir. Yəni səfir Litzenberqeri susduran səbəblər, səfir Linn Treysinin əksinə fəallaşdırır. Linn Treysinin də Ermənstanda xidmət müddəti başa çatır və o da yeni və normal ölkəyə, yaxud daha yüksək vəzifəyə təyinat istəyir. Söz yox ki, onun da taleyi Bob Menendesin əlindədir və o, ermənilərə sevgi nümayiş etdirməklə siyasi bonuslar qazanmağa çalışır. Linn Treysi Ermənistana səfir təyin olunanda da ermənilərə olan sevgi amilindən məharətlə istifadə edib, belə ki, təyinat prosesi zamanı Menendesin suallarına cavab verən Linn bunları demişdi: " Osmanlı İmperiyasının son illərində 1.5 milyon erməni deportasiya olunmuş, öldürülmüş və ölümcül sürgünə məruz qalmışlar ".

Treysinin canfəşanlığının digər səbəbi odur ki, nə qədər də inandırıcı görünməsə, o da aşkenazi yəhudilərindəndir və qanında türk qanı axır. Linn bilir ki, ermənilər də, ermənipərəstlər də bunu bilirlər və əgər o, bir qədər özünün anti-Azərbaycan-Anti-Türkiyə mövqeyini yumşaldarsa, onun diplomatik karyerasına son qoyulacaqdır.

Burada İsrailin müharibə dövründə Azərbaycana göstərdiyi dəstək amilini də unutmaq olmaz. Ermənilər üçün fərq etmir: yəhudi-yəhudidir. Və əgər yəhudi dövləti Azərbaycana dəstək verirsə, deməli, bütün yəhudilər də ermənilərin düşmənidir. Və indi Linn ermənilərə sübut etməyə çalışır ki, o, fərqli yəhudidir və erməniləri sevirmiş...

Beləliklə, Azərbaycana qarşı qenişmiqyaslı siyasi təzyiqlərin obyektiv və subyektib səbəbləri var. Ümumiyyətlə, biz artıq özümüz üçün bir faktı tam aydın etməliyik. Biz ABŞ-dan bizə qarşı olan hücumları erməni lobbisi ilə əlaqələndirməyimiz artıq kökündən səhvdir. ABŞ özü "həftəbecər" ölkədir və orada bütün millətlər birbirinə qarışıb. Sadəcə, ermənisi bir az çox olub deyə, bizə qarşı siyasəti "acı" olub. Biz artıq ABŞ-da bizə qarşı olan bütün həmlələri birbaşa ABŞ dövlətinin rəsmi mövqeyi kmi qəbul etməli və ona uyğun da öz siyasətimizi qurmalıyıq. Qarabağı azad etdikdən sonra ABŞ bizə olan düşmənçilik mövqeyini və nəticə etibarı ilə təzyiqi getdikcə artıra bilər, amma bu təzyiqlər nəticəsiz qalacaq. Çünki onun qarşısında xalq-hakimiyyət birliyinin, vəhdətinin gerçək simvolizasiyası dayanıb!

Ancaq buna baxmayaraq, amerikalıların mövcud hakimiyyətlərinin, daha dəqiq desək, demokratlarının təsiretmə cəhdləri davam edə bilər. Və ABŞ-ın bütün son addımları da bunu sübut edir. Yeri gəlmişkən, ABŞ-a Əfqanıstanda ən çox dəstək göstərən tərəflər də Türkiyə ilə Əfqanıstan hərbçiləri (sülhməramlı kontingenti) dəstək oldular. Amerikalılar bu ölkədən qaçdıqdan sonra isə onlar elə sa-



nırlar ki, daha nə Türkiyə, nə də Azərbaycan onlara lazım deyil. Bu amili də unutmayaraq qeyd edə bilərik ki, demokratlar həqiqətən də bel bağlanılası cinah deyillər.

Bu arada onu da xatırlatmaq yerinə düşərdi ki, son bir neçə illər ərzində ABŞ-la Rusiya ali hərbi qurumları görüşlərini məhz Bakıda keçirirdilər. İndi isə bu görüş Finlandiyanın Vantaa şəhərinə transfer olunub. Görünür, ABŞ bu vasitə ilə bizlərə mesaj yollamağa cəhd edir. Lakin bu mesajın da artıq bizim üçün heç bir əhəmiyyəti yoxdur.

Analizimizi ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, Azərbaycanın tam haqlı olaraq öz torpaqlarını - Qarabağı azad etməsi ABŞ-n Azərbaycana qarşı açıq qərəzçilik mövqeyini artırıb və hazırda ABŞ-dan bizə qarşı daha geniş təhdidləri də gözləmək olar. Bu, həm beynəlxalq səviyyədə, həm də ABŞ-ın Azərbaycanın daxilində yaratdığı "agentura" səviyyəsində də istifadə oluna bilər. Misal üçün, bu gün özlərini "ana müxalifət" hesab edən radikal dairələrin əksəriyyəti uzun illərdir Qərbin, xüsusilə, ABŞ-ın nəzarəti altında fəaliyyət göstərirlər. O da əbəs deyil ki, radikalların Qərbi Avropa ölkələrindəki sosial şəbəkə sistemlərinə də məhz ABŞ-dan nəzarətlər, təlimatlar mövcuddur. Bu haqda "n" qədər məlumatlar, informasiyalar dəfələrlə mediada və s. informasiya mənbələrində yazılıb, deyilib.

Lakin hazırda Azərbaycanda fəaliyyət göstərən və adlarını "humanitar missiya" kimi təqdim edən, reallıqda isə Vaşinqtonun demokratlar cameəsini hakimiyyətə gətirməyə müvəffəq olan Soros fondunun şübhəli şəxsləri də nəzərdən yayınmamalıdır. Bu kontekstdən çıxış edərsək, həm də belə nəticəyə gələ bilərik: Azərbaycanda qarşıdakı aylar ərzində namizədliyi irəli sürüləcək növbəti ABŞ səfirinin şəxsiyyəti son dərəcə diqqətlə öyrənilməlidir. Çünki Ağ ev bilavasitə Sorosun əlində ipli kuklaya çevrilib. Hətta Soros əlində olan maliyyəsindən gen-bol istifadə etməklə Azərbaycana öz adamını yerləşdirməyə də bilər. Üstəlik, nəzərə alsaq ki, ölkə daxilində Soros şəbəkəsinə xidmət edənlər də mövcuddur, bu zaman daha diqqətli olmaq vacibliyi ortaya çıxır. Məsələn, bu gün də Azərbaycanda USAİD adlı sorosçu qurum fəaliyyət göstərir və Sorosun Azərbaycanda fəaliyyət göstərən təşkilatlarına milyonlarla dollarlarla ölçülən qrantlar ayırmaqla onların Azərbaycanda qalmasına şərait yaradır ki, lazım olan kimi işə salsın.

Başqa tərəfdən, biz dəfələrlə Sorosa məxsus "Şərq-Qərb İdarəetmə İnstitutu"nun Azərbaycandakı qanunsuz fəaliyyəti haqqında məlumat vermişik, amma həmin təşkilat yenə də USAİD-dən qrantlar almaqla özünün qanunsuz fəaliyyətlərini davam etdirir, özü də bəzi qüvvələr onlara bunda dəstək göstərir. Məsələn 28 sentyabr tarixində bu təşkilat Azərbaycanda online formatda konfrans keçirməyi planlaşdırır və bir çox rəsmi və qeyri-rəsmi şəxsləri həmin konfransa qoşmağı planlaşdırır. Hətta bilmək olmaz, bəlkə Corc Sorosun elə özü o konfransa qoşuldu. Ona nə var ki, siyasi həyasızın təkidir!

***Rövşən RƏSULOV***

***P.S.** İndi təsəvvür edin ki, ölkəyə səfiri də dolayısı yollarla Soros təyin etsə, onda hansı proseslər başlaya bilər (?!). Odur ki, diqqətli olmağa dəyər...*

# ATƏT-in həmsədrləri əvvəlki kimi "aşsüzəndə su daşımaqla" məşğul olacaqlar?

**Və ya Tofiq Zülfüqarov sözügedən məsələyə hansı maraqdoğurucu aydınlıqlarını gətirdi?**

Region növbəti dəfə ATƏT-in Minsk qrupu həmsədrlərinin ziyarətinə hazırlaşır. Bu barədə daha əvvəl Rusiya XİN-nin başçısı Sergey Lavrov bəyan edərək vurğulamışdı ki, Bakı və İrəvanla yanaşı, həmsədrlər Xankəndini də ziyarət edəcəklər. Lavrov eyni zamanda xatırladıb ki, həmsədrlər BMT-nin Baş Assambleyası sahələrində Ermənistanın və Azərbaycanın XİN rəhbərləri ilə görüşərək regiona qarşılıqlı səfərlərin bərpa edilməsi üçün razılıq əldə ediblər.

**Həmsədrlərin regiona səfərlərinin məqsədi nədir? Onlar Bakı və İrəvanla, eləcə də Xankəndidə hansı məsələlərin müzakirəsini aparmaq niyyətindədirlər?**

Onların yenidən Qarabağın statusu məsələsini gündəmə gətirəcəklərini də istisna etmək olmaz, hansı ki, bu haqda ABŞ-ın, Fransanın rəsmi şəxsləri də inadkarlıqla danışırdılar. Lakin onlar bir həqiqəti də anlamalıdırlar ki, Azərbaycan Prezidenti İlham Əliyev Vətən müharibəsinin başlanmasının birinci ildönümündə "Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur və kimlərsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirlərsə, qoy bunu öz ərazilərində etsinlər, öz ərazilərində "Dağlıq Qarabağ" adlı respublika yaratsınlar və biz də onu tanıyaq. Ancaq Azərbaycandan kənarda! Bu məsələ həll edilib. Bunu mən - Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı deyirəm. Hər kəs də bu sözlərlə hesablaşmalıdır", deyə qətiyyətli bəyanatını səsləndirmişdi.

**Təbii ki, ediləcək səfərə biz də hazırlaşmalıyıq, amma gəlin görək, onlar öz səfərlərində hansı "yüklə" gələcəklər?**

Məhz həmin bəyanatdan təxminən bir gün sonra Rusiyanın XİN rəhbəri Lavrov həmsədrlərin regiona səfərlərini anons edir. Lakin həmsədrlərin edəcəkləri səfəri nəyə hesablanıb? Onlar yenə də düşünürlər ki, regiona səfərlərini bərpa etməklə 30 ildəki fəaliyyətləri dövründən fərqli olmayaraq, yəni əvvəlki kimi "aşsüzəndə su daşımaqla" məşğul olacaqlar? Hesab edirlər ki, danışıqlar prosesində əvvəlki mövqelərimizə çəkilmək üçün bizə təsir edəcəklər? Fəqət, onlar buna da nail ola bilməyəcəklər - regionda yeni reallıqların yaranmasını nəzərə alaraq!

**Bundan əlavə, onların səfərləri elan edilib və onlar istənilən gündə gələ bilərlər. Təbii ki, ediləcək səfərə biz də hazırlaşmalıyıq, amma gəlin görək, onlar öz səfərlərində hansı "yüklə" gələcəklər?**

Azərbaycan yeni şərtlərdə statusla bağlı istənilən variasiyaları erməni tərəfinin ölkəmizin ərazilərini müxtəlif bəhanələr vasitəsi ilə qoparmaq cəhdi kimi görür

SİA xəbər verir ki, Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov mövzu ilə bağlı rusdilli




minval saytına müsahibə verib və həmin müsahibədəki maraqlı fikirləri diqqətinizə çatdırırıq.

Fikirlərini şərh edən sabiq XİN rəhbəri hesab edir ki, ATƏT-in Minsk qrupu əsasən postmünaqişə mərhələsində erməni-azərbaycanlı münasibətləri mövzusuna toxunacaqlar və bununla yanaşı, humanitar xarakterli aspektlər də müzakirə ediləcək.

"Azərbaycan status məsələsinə qəti olaraq qarşı çıxır və Azərbaycan Prezidenti yaxın ərəfələrdə bunu təsdiq edib. Hesab edirəm ki, mövcud vəziyyətdə biz bunun nəyə görə baş verdiyini anlamalıyıq. Və ən əsası ona görə ki, Azərbaycan yeni şərtlərdə statusla bağlı istənilən variasiyaları erməni tərəfinin ölkəmizin ərazilərini müxtəlif bəhanələr vasitəsi ilə qoparmaq cəhdi kimi görür. Bu məsələ bizim üçün prinsipial xarakter daşıyır. Rəsmi Bakı buna getməyəcək.

Bundan əlavə, ATƏT-in Minsk qrupu ehtimal edir ki, Ermənistanın iştirakı bu kimi məsələlərin hamısında olacaq. Təbii ki, ermənilərin Azərbaycanın tərkibində necə yaşayacaqları ilə bağlı məsələlərə Ermənistanı da buraxmaq real görünmür. Azərbaycanın buna gedəcəyini təsəvvür etmək mümkün deyil.

Postmünaqişə ilə bağlı digər bütün məsələlər - kommunikasiyaların normallaşdırılması və s. humanitar etimadlar mümkündür və ATƏT-in Minsk qrupunun fəallığı çərçivəsində olacaq.

Və ümumiyyətlə, anlamaq lazımdır ki, Minsk qrupu nəyi isə calamaq vəziyyətində deyil. Minsk qrupunun 30 illik təcrübəsi göstərdi ki, onlar hər nə desən edə bilərlər, amma situasiyaya təsir etmək vəziyyətində deyil. Ona görə, mövcud halda diplomatik taktikanı seçib: yəni gəlin-danışın-gedin və s. amma nə isə real şeylər baş verməyəcək. Onlar gəlib nədən istəsələr danışa bilərlər, status məsələsi istisna olmaqla", diplomat bildirib.

**Həmsədr ölkələrin diplomatları tez-tez arzu olunanı həqiqət kimi səsləndirirlər**

Həmsədrlərin Xankəndiyə səfərlərinə nə qədər ehtiyacın olub-olmaması və eyni zamanda, onların rusiyalı sülhməramlıların nəzarətləri altındakı Xankəndiyə səfərləri zamanı rəsmi Bakının da nümayəndələrinin iştirakı mümkünlüyü barədə də münasibət bildirən Tofiq Zülfüqarov bir az gözləməyə çağırıb.

"Nazir Bayramov (XİN başçısı) bütün situasiya haqqında dövlət başçısına məruzə etməlidir. Həmsədr ölkələrin diplomatları tez-tez arzu olunanı həqiqət kimi səsləndirirlər. Gəlin Azərbaycan tərəfinin təsdiqini gözləyək. Düşünmürəm ki, həmsədrlərə Xankəndiyə səfər etmək lazımdır. Daha dəqiqi, mən buna qarşı çıxardım", Azərbaycanın xarici dipomatiya idarəsinin sabiq rəhbəri bildirib.

Tofiq Zülfüqarov Lavrovun həmsədrlərin regiona səfərlərinin yerlərindəcə keçiriləcəyi barədə fikirlərinə də münasibət bildirib və qeyd edib ki, o, Lavrovun sözlərinə inanan adamlardan deyil.

***Rövşən RƏSULOV***

ANALİTİK+ŞƏRH

# "Minsk Qrupuna ehtiyac yoxdur"

## *POLİTOLOQ MÜNASİBƏT BİLDİRDİ*



"Nikol Paşinyan təlimatlarla hərəkət edir. Demək olar ki, Paşinyan tamamilə böyük güclərin təsiri altında olan bir siyasətçidir. Azərbaycana qarşı qurulan məkrli hədələrindən biri də odur". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

Onun sözlərinə görə, Paşinyan heç bir ilkin şərt irəli sürmədən ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə Azərbaycanla sülh danışıqlarına hazır olduğunu bildirməsi həmsədrləri dirildib yenidən siyasi dövriyyəyə qoşmaq istəyindən irəli gəlir: "Azərbaycan tərəfi bu manevrləri çox yaxşı başa düşür. Lazım olan işləri vaxtında görməyən ATƏT-in Minsk Qrupunun indi bu proseslərə qovuşmasını mümkün hesab etmir. ATƏT-in Minsk Qrupunun həmsədrləri fəaliyyətdə olduqları uzun illər ərzində Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında tənzimlənməsi, ədalətin bərpa edilməsi, təcavüzkarın təcavüzkar kimi qiymətləndirilməsi sayəsində heç bir əməli iş görə bilmədilər. Bu baxımdan ATƏT-in Minsk Qrupunun yenidən dövriyyəyə daxil olmasını Azərbaycan heç vəchlə qəbul edə bilməz. Həm də, münaqişə artıq bitib. Ona görə də, Minsk Qrupuna da ehtiyac yoxdur".

***Gülyana***

# Ohanyan: "Yararsız təyyarə raketləri Paşinyan hakimiyyəti tərəfindən alınıb"



**Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan Ermənistan Silahlı Qüvvələri üçün istifadə müddəti başa çatmış təyyarə raketlərinin alınması ilə əlaqədar dindirilib. SİA xəbər verir ki, bunu Ohanyanın özü "24News"-a müsahibəsində deyib. Parlamentin Müdafiə və Təhlükəsizlik Komissiyasının rəhbəri Andranik Koçaryanın "raketlər əvvəlki hakimiyyət tərəfindən alınıb" sözlərinə münasibət bildirən Ohanyan təyyarə raketləri ilə əlaqədar cinayət işinin açıldığını söyləyib. Əlavə edib ki, Aviasiya İdarəsinin keçmiş rəisi də nəzarətə alınıb və sorğu-sual edilir.**

Keçmiş nazir yararsız raketlərin keçmiş yox, indiki hakimiyyət dövründə alındığını vurğulayaraq, müqavilənin bəzi detallarını açıqlayıb. Onun sözlərinə görə, raketlərin çatdırılması 2011-ci ildə həyata keçirilib, döyüş sursatının 30 faizi istifadəyə yararlı idi və Silahlı Qüvvələr tərəfindən qəbul edilib. Ohanyanın sözlərinə görə, qalan 70 faizi isə istifadəyə yararsız idi. Təchizatçı təşkilatın tələbi ilə təyyarə raketləri başqa ölkəyə satış icazəsi alınana qədər bizim anqarlarda saxlamaq haqda qərar qəbul edildi.

"2018-ci ildə isə bu raketlər Müdafiə Nazirliyinin balansına əlavə edildi, nazirlik onları iki dəfə baha qiymətə aldı. İstintaq Komissiyası vicdanlı davranmalı və 2011-ci ildə Müdafiə Nazirliyinin qəbul etmədiyi raketlərin 2018 -ci ildə satın alındığını söyləməlidir. Buna görə də ziyan və korrupsiya halı bizim yox, indiki hakimiyyətin üzərindədir", deyə Ohanyan bildirib.

Bundan əvvəl Ermənistan Milli Təhlükəsizlik Xidməti Silahlı Qüvvələrin Aviasiya İdarəsinin keçmiş rəisinin vəzifə səlahiyyətlərindən sui-istifadə və vəzifə saxtakarlığı hallarının müəyyən edilməsi barədə məlumat vermişdi. Nazirlikdən verilən məlumata görə, sözügedən məmur çoxlu sayda istifadə müddəti başa çatmış raketlərin alınması üçün sifarişlər verib. Raketlərin alınması üçün təchizatçı şirkətlə 2.277.323.840 dram (4.655.200 dollar) dəyərində müqavilə bağlayıb.

Kəşfiyyat xidmətindən verilən məlumata görə, çatdırıldıqdan bir müddət sonra raketlərin bir hissəsi balansdan çıxarılıb, qalanları isə 44 günlük müharibə zamanı da daxil olmaqla istifadə edilməyib.



# Mərd, igid oğulları olan xalq hər zaman qalibdir!

## *YAP Xətai rayon təşkilatı Zəfərimizin qələbələrlə dolu hər anını xüsusi qeyd edir*





***Qırx dörd günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz bu gün harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıları qürurlandırır, xalqımıza bu sevinci yaşadan ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna dərin minnətdarlıq hissini ifadə edirlər. Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canından keçən şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə Allahdan şəfa diləyirik.***

Ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının hər bir şəhər və rayon təşkilatı bu günlər Vətən müharibəsi şəhidlərini Anım Günü ilə bağlı silsilə tədbirlər keçirir, bu tədbirlərdə 30 ilin işğalına 44 gündə son qoyan Vətən oğullarının qəhrəmanlığından, şücaətindən geniş bəhs olunur. SİA-nın məlumatına görə, YAP Xətai rayon təşkilatı İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizin qələbələrlə dolu hər anını keçirdiyi tədbirlərlə geniş ictimaiyyət arasında təbliğ edir. Belə ki, partiyanın rayon təşkilatının sədri Vüqar Rəhimzadə və təşkilatın fəal üzvləri Xətai rayonundan olan şəhidlərimizin İkinci Fəxri xiyabanda, Şəhidlər qəbiristanlığında məzarlarını ziyarət edərək xatirələrini böyük ehtiramla anırlar. Həmçinin şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi üçün onların adına vurulan xatirə lövhələrinin və inşa edilən bulaqların, parkların açılışında iştirak edirlər. Rayon təşklatının üzvləri, həmçinin bu günlər şəhid ailələri və qazilərlə görüşür, onların qayğıları ilə maraqlanırlar.

YAP Xətai rayon təşkiatının sədri Vüqar Rəhimzadə bildirir ki, şəhidlər zaman keçdikcə əfsanəyə dönürlər. Mərd, igid oğulları olan xalq heç vaxt yağı düşmənə, namərdə baş əymir, daim qələbələr qazanır. Məhz belə keyfiyyətlərə sahib olan Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində yenilməzliyini, məğrurluğunu bir daha bütün dünyaya nümayiş etdirdi.

Keçirilən silsilə tədbirlərin maarifləndirici əhəmiyyətindən bəhs edən Vüqar Rəhimzadə vurğulayır ki, Vətənin müdafiəsi uğrunda canından, qanından keçən belə qəhrəmanlarımızı, şəhidlərimizi hər bir Azərbaycan gənci yaxından tanımalı, onların keçdikləri şərəfli döyüş yoluna dərindən bələd olmalıdır. Vətəni qorumaq kimi müqəddəs bir amal uğrunda döyüşə atılan və ölüm-dirim savaşında düşmənə qan udduran qeyrətli Vətən oğullarını yad etmək, xatirələrini əziz tutmaq hər birimizin müqəddəs vəzifəsi və borcu olmalıdır. Artıq ölkəmizdə şəhidlərimizin doğum və anım günlərinin böyük ehtiramla qeyd olunması ənənə halını alıb. Bütün bunlar bir daha onu göstərir ki, şəhidlərimiz hər birimizin qəlbində yaşayırlar və tarix boyu yaşayacaqlar.

YAP Xətai rayon təşkilatının sədri belə tədbirlərin davamlı olacağını bildirir. Xüsusi qeyd edir ki, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində 44 günün hər günü tariximizə qələbə səhifəsi kimi yazan 3 minə yaxın şəhidimizin, yüzlərlə qazimizin həyat yolu daim vərəqlənəcək, bundan sonra da neçə-necə nəsillərin vətənpərvərlik ruhunda tərbiyəsində böyük rol oynayacaq.

# İsmayıllıda şəhidlərin xatirəsi anılıb



İsmayıllı rayon Qubaxəlilli və Kürdmaşı kəndlərində torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş gizir Qəfərov Saməddin Rasim oğlu və əsgər Əliyev Fərid Hamlet oğlunun şəhid olduqları gündə rayon ictimaiyyəti tərəfindən onların yaşadıqları evdə əziz xatirələri anılıb.

Anım mərasimində İsmayıllı rayon icra hakimiyyətinin başçısı Nahid Bağırov, YAP İsmayıllı rayon təşkilatının sədr əvəzi Sevil Əhmədova, partiya fəalları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Daha sonra İsmayıllı rayonu İvanovka kəndində 1-ci və 2-ci Qarabağ müharibəsində şəhid olmuş həmyerlilərimizin xatirəsinə yaradılmış bulaq kompleksinin açılışı olub.



Tədbirdə rayon icra hakimiyyətinin başçısı Nahid Bağırov şəhidlərin ailələrinə başsağlığı verərək, bu cür qəhrəman övladlar yetişdirdikləri üçün onlara minnətdarlığını bildirib. Qeyd olunub ki, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizi xalqımız heç bir zaman unutmayacaq. Şəhidlərimiz canı və qanı hesablarına illərdir həsrətində olduğumuz torpaqlarımızı düşmən tapdağından azad etməklə bizim başımızı uca etdilər. İndi onların şəhid olduğu torpaqlarda Şanlı Azərbaycan Bayrağı dalğalanır. 44 gün ərzində düşməni diz çökdürən Azərbaycan Ordusu dünyanı heyrətə gətirdi. Şəhid ailələrinə mənəvi dəstək olmaq hər birimizin borcudur.

Şəhid ailələri onların problemləri ilə maraqlanan, dərdlərinə şərik olan insanlara mənəvi dəstək olduqları üçün razılıqlarını bildirib, göstərilən diqqət və qayğıya görə Cənab Prezidentə minnətdarlıqlarını ifadə ediblər.

***ZÜMRÜD BAYRAMOVA***

# YAP Biləsuvar rayon təşkilatının əməkdaşları Şəhid ailələrini ziyarət ediblər





Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları 29 sentyabr 2021- ci il tarixdə 44 günlük Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar rayon Çaylı kəndindən olan Şəhid Babayev Elməddin Cəfərqulu oğlu, Şəhid Məmmədzadə Kamran Fizuli oğlu, Günəşli kəndindən Şəhid Xosuzadə Müşfiq Zakir oğlu, Nərimankənd kəndindən Şəhid Eynullayev Rövşən Elşən oğlu, Bəydili Kəndindən Şəhid Quluzadə Məhəmməd Cəlal oğlu və Biləsuvar şəhər Şəhidi Astanlı İqbal İlqar oğlunun ildönümləri münasibətilə ailələrini ziyarət edib, məzarları üzərinə tər güllər düzüblər.

**Allah rəhmət eləsin!**

***Rəfiqə***

# YAP Zaqatala rayon təşkilatının fəalları Zəfər Kompleksini ziyarət ediblər

Yeni Azərbaycan Partiyasının Zaqatala rayon təşkilatının fəalları 27 Sentyabr-Anım Günü ilə əlaqədar Şəhidlər Xiyabanını və Zəfər Kompleksini ziyarət ediblər, Ziyarətçilər Vətən müharibəsində canlarını qurban vermiş qəhrəman şəhidlərimizin xatirəsini ehtiramla yad edib, məzarlarının önünə əklil və gül dəstələri düzüblər.



***Zümrüd***

# Prezident "France-24" televiziyasına yeni reallıqlardan danışdı

***44 günlük Vətən müharibəsində demək olar ki, bütün dünyanın diqqəti Azərbaycanda idi. XXI əsrin müharibəsini aparan Azərbaycanın hərbi gücü, qüdrəti dünyaya səs saldı. 44 günlük Vətən müharibəsində Azərbaycan böyük döyüş yolu keçərək qısa bir zamanda 30 ilə yaxın işğalda olan torpaqlarını azad etdi. Bu müddət ərizində dünyanın aparıcı KİV-ləri Azərbaycanın həqiqətlərini dünyaya çatdırdılar. Azərbaycan Prezidenti İlham Əliyev dünyanın 30-dan artıq KİV nümayəndələrinə müsahibələr verdi.***



Bu gün müharibədən sonrakı müddətdə də dövlət başçısı bir sıra dünya dövlətlərinin KİV-lərinə müsahibələr verərək, Azərbaycan reallıqları ilə onları tanış edir. Bu günlərdə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın "France-24" televiziya kanalına müsahibə verib.

"Keçən həftə BMT-də müharibə bitəndən bəri ilk dəfə hər iki ölkənin - Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri görüşdü. Bu, hər iki tərəf arasında dialoqun yenidən başlaması və sülhə ümidin olacağı deməkdirmi?" sualına cavab olaraq dövlət başçısı bildirib ki, "Ümid etmək istərdim ki, bu, belədir. Çünki Azərbaycan artıq neçə dəfə açıq şəkildə Ermənistanla dialoqa başlamağa hazır olduğunu bildirib. Söhbət təkcə dialoqun başlanılmasından getmir, eyni zamanda, Azərbaycan və Ermənistan arasında gələcək sülh razılaşmasının üzərində aparılacaq işdən də gedir. Müharibə bitib, münaqişə öz həllini tapıb. Biz regionu daha da proqnozlaşdırıla bilən, sabit və təhlükəsiz regiona çevirmək üçün yeni fəaliyyətə başlamalıyıq". Cənab Prezident qeyd edib ki, hər iki ölkənin xarici işlər nazirlərinin görüşü bu səylərin yaxşı göstəricisidir: "Ümid edirəm ki, bu, təkcə bir görüş yox, yeni bir prosesin başlanğıcı, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinin və Cənubi Qafqaz regionunda geniş əməkdaşlığa yeni bir miqyas verəcək proses olacaq".

**"BİZ MÜNAQİŞƏNİN HƏLL OLUNDUĞUNU HESAB EDİRİK, KEÇMİŞƏ QAYIDIŞ OLMAMALIDIR"**

Dialoqa yenidən başlamağa cəhd etmək və sülhə doğru irəliləmək üçün Ermənistan rəhbərliyi - Ermənistanın baş naziri ilə əlaqə yaratmağa gəlincə, dövlət başçısı bildirib ki, keçən ilin noyabr ayında müharibə bitəndən bəri bizim bir-birimizi görmək üçün yalnız bir imkanımız olub: "Bu, yanvar ayında Rusiya Prezidenti Vladimir Putin tərəfindən Moskvada təşkil olunan üçtərəfli görüş zamanı olub. Görüşün məqsədi müharibədən sonra hadisələrin gedişatını planlaşdırmaq idi. Bizim bir-birimizi görmək üçün başqa imkanımız olmayıb. Yəqin ki, bu pandemiya ilə və ya başqa səbəblərlə əlaqədar olub. Lakin Azərbaycan heç vaxt, hətta müharibə zamanı, hətta işğal zamanı belə istənilən yüksək səviyyəli təmaslara etirazını bildirməyib".

Əlbəttə ki, dövlətlərarası münasibətlərdə əlaqələrin sülh üzərində qurulması regionun inkişafına böyük töhfəsini verər. "Biz münaqişənin həll olunduğunu hesab edirik, keçmişə qayıdış olmamalıdır, Ermənistanda revanşizm əlamətləri olmamalıdır. Biz gələcək haqqında, sülh haqqında və regionu necə daha da sabit və təhlükəsiz etmək imkanları haqqında danışmalıyıq", - deyə Prezident bildirib.

**"MÜNAQİŞƏNİN HƏLL OLUNMAMASI İLƏ BAĞLI İSTƏNİLƏN BƏYANAT YERSİZ OLMAQLA YANAŞI, TƏHLÜKƏLİDİR"**

Artıq bu gün ermənilərin yaratmaq istədikləri mif dağıdılıb. Ölkəmizin dinamik inkişafı, güclü ordu quruculuğu, beynəlxalq münasibətlərdə Azərbaycanın milli maraqlarının müdafiəsi və təmin edilməsi ölkəmizin nüfuz və mövqeyini yüksəldib. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir.

"Siz Qarabağa muxtariyyət verməyə hazırsınız? Minsk qrupunun üzvü ABŞ hələ də bəyan edir ki, Qarabağ məsələsi öz həllini tapmayıb. Siz bəyan edirsiniz ki, məsələ həllini tapıb və Qarabağ sizə məxsusdur. Lakin illər ərzində bu münaqişədə vasitəçilik edən bir sıra ölkələr iddia edir ki, məsələ həll edilməyib', sualına Cənab Prezident qətiyyətli mövqeyini bir daha bəyan edərək bildirib: "Mənim məsələnin həll edilmədiyini deyən həmin ölkələrə tövsiyəm odur ki, öz ərazilərində erməniləri yerləşdirmək və öz ərazilərində ikinci Ermənistan dövləti yaratmaq üzərində düşünsünlər. Niyə onlar hesab edirlər ki, hər hansı hüquqi, siyasi və tarixi əsaslar olmadan Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmalıdır? Mən deyəndə ki, münaqişə həllini tapıb, bu, mənim mövqeyimdir. Mən bu mövqeyi müdafiə edirəm".

Cənab Prezidentə ünvanlanan muxtariyyətlə bağlı sualına gəldikdə, dövlət başçısı Minsk qrupunun həmsədrlərinin 28 il sürən mənasız danışıqlarda Azərbaycanın mövqeyindən çox yaxşı xəbərdar olduqlarını bildirib: "Biz Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə təqdim etməyə hazır idik. Ermənilər hər zaman bunu rədd edirdilər. Onlar hər zaman "yox" deyirdilər - yalnız müstəqillik. İndi isə münaqişə başa çatdığından, onlar muxtariyyət haqqında danışırlar. Bu isə bizim gündəliyimizə daxil deyil. Bu gün Qarabağda Rusiya sülhməramlılarının məsuliyyət zonasında yaşayan ermənilər ölkəmizdə yaşayan digər etnik qrupların nümayəndələri kimi Azərbaycan vətəndaşlarıdır".

***Nəzakət ƏLƏDDİNQIZI***

# DIQQƏT: Şənbə və bazar günləri metronun fəaliyyəti bərpa olunur!



Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 24 sentyabr tarixli 280 nömrəli "Xüsusi karantin rejimində bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı əlavə tədbirlər barədə" Qərarına uyğun olaraq, oktyabrın 1-dən ictimai nəqliyyat, o cümlədən Bakı metropoliteni həftəsonları sərnişindaşıma fəaliyyəti göstərəcək. SİA xəbər verir ki, həftəiçi olduğu kimi, istirahət günlərində də metropolitenin stansiyaları saat 06:00-dan 00:00-dək sərnişinlərin girişinə açıq olacaq. Qatarların hərəkət cədvəli, 2019-cu ilin eyni dövrünün qrafikinə uyğun tərtib olunub. Bu səbəbdən qatarlararası interval Qırmızı xəttin "28 May-Həzi Aslanov" sahəsində 2 dəqiqə 30 saniyə təşkil edəcək. Yaşıl və Qırmızı xətlərin kəsişərək birləşdiyi müştərək sahəsi olan "28 May" stansiyasından sonra, "İçərişəhər" və "Dərnəgül" stansiyalarına və əks istiqamətdə qatarlar arasında interval 5 dəqiqəyə bərabər olacaq.

Bənövşəyi xətdə qatarların hərəkət cədvəlində dəyişiklik edilməyəcək. Pandemiya şəraiti davam etdiyindən, müəssisə və təşkilatların iş rejimi, o cümlədən təlim-tədris ocaqlarının fəaliyyətində mümkün dəyişikliklərin nəzərə alınması məqsədilə xətlər üzrə müvafiq monitorinqlər həftəsonları davam etdiriləcək. Sərnişinlərin axın istiqamətləri və sıxlığı kimi mühüm məsələlər nəzarətdə saxlanılacaq. Zərurət olduqda, mümkün optimal texniki qərarlar veriləcək. Bu xüsusda ehtiyaca uyğun olaraq "Nərimanov" elektrik deposunda nəzərdə tutulan ehtiyat qatarlar xəttə buraxılacaq.

"Bakı Metropoliteni" QSC sərnişinlərinin nəzərinə bir daha çatdırır ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın elan etdiyi növbəti yumşalma tədbirlərinin müsbət



nəticələrini qorumaq hər birimizdən asılıdır. "COVID-19" virusu ilə əlaqədar xüsusi karantin rejimi davam etdiyindən metodiki göstərişlərin, həmçinin sanitar-gigiyenik normaların tələblərinə ciddi riayət edilməsi vacibdir. Unutmayaq, koronavirusla mübarizədən yalnız birlikdə qalib çıxa bilərik.

***Kəmalə Təyyarqızı***

# Dəmir yumruğun Zəfər salnaməsi

***27 sentyabr 2020-ci il - bu tarix işğalçıya yerini göstərdiyi gündür. Bu tarix torpaqlarımızın azadlığı ilə başa çatan Vətən müharibəsinin başlanmasının və 44 gün ərzində zəfərlə başa çatdığı bir ilinin tamam olduğu gündür. Həmin gün Ermənistanın təxribatlarından sonra Ali Baş Komandanımızın "Dəmir yumruq" siyasəti ilə Güclü Azərbaycan Ordusunun igid əsgər və zabitlərimizin rəşadəti ilə 44 gün ərzində ərazi bütövlüyümüz bərpa olundu, haqq, ədalət bərpa olunudu, 1 milyondan çox soydaşlarımızın torpaq, yurd həsrətinə son qoyuldu.***



**HƏMİD PƏNAHOV, YAP Qazax rayon təşkilatının sədri**

Bir sözlə, sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsi şanlı Azərbaycan Ordusunun Tarixi Zəfəri ilə başa çatdı və 30 ilə yaxın davam edən işğala həmişəlik son qoyuldu. Güclü Silahlı Qüvvələrimizin əsgər və zabitləri, hərbçiləri Vətənimizin ərazi bütövlüyü naminə bir yumruq kimi birləşib, qəhrəmancasına vuruşaraq Azərbaycan Ordusunun gücünü, qüdrətini bütün dünyaya bir daha nümayiş etdirdilər.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin söylədiyi kimi: "İkinci Qarabağ müharibəsi o müharibədir ki, Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etdi. Qürur hissi ilə deyə bilərik ki, biz Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik. Bu, tarixi nailiyyətdir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır. Biz bütün gücümüzü səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib düşməni məğlub etdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik".

Bəli, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun gücü, qüdrəti bir daha sübut etdi ki, əldə olunmuş Qələbə həqqin, ədalətin təntənəsidir. Dövlətimizin başçısının da qeyd etdiyi kimi: "Bu tarix Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Bu, qürurun təntənəsi idi, milli ləyaqətin təntənəsi idi, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Biz bütün gücümüzü səfərbər edib bu müharibədə Qələbə qazanaraq düşməni torpaqlarımızdan qovduq. Müharibə nəticəsində Ermənistan ordusu məhv edilib. Ermənistan ordusu yoxdur. 336 tank məhv edilib, ya da ki, qənimət kimi götürülüb. Səkkiz S300 qurğusu məhv edilib, onların hava hücumuna qarşı digər artilleriya qurğuları məhv edilib. Biz Şuşanı işğalçılardan azad edəndən sonra işğalçılar məcbur olub noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdılar. İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan isə bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq".

Bəli, hər zaman işğalçı mövqedə olan Ermənistanın inkişafı üçün yeganə yol isə öz qonşuları ilə normal münasibətlər qurmaq və ərazi iddialarından əl çəkməkdir. Çünki Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur, Dağlıq Qarabağ münaqişəsi anlayışı yoxdur. Dağlıq Qarabağ münaqişəsi həll olunub, Ermənistan da bunu belə qəbul etməlidir. Biz qalib ölkəyik. Ermənistanı məhv etmişik.

Ali Baş Komandanımız, Prezident İlham Əliyev Anım Günü ilə əlaqədar xalqa müraciəti zamanı da bildirdi ki, 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq: "Müharibə dövründə hamımız bir şüarla yaşayırdıq - öldü var, döndü yoxdur. Azərbaycan xalqı Azərbaycan Ordusunun arxasında möhkəm dayanaraq ordumuza əlavə güc verirdi. Günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi. Biz hər gün irəli gedirdik, hər gün qələbə qazanırdıq, hər gün yeni uğurlar haqqında məlumatlar daxil olurdu. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq".

Dövlət başçısı son 18 illik fəaliyyəti müddətində müharibə vekteranlarına, şəhid ailələrinə həmişə qayğı ilə yanaşıb. Ali Baş Komandanımız Anım Günü ilə əlaqədar xalqa müraciəti zamanı da bildirdi ki, biz şəhidlərimizlə, qazilərimizlə fəxr edirik, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə, əsgər-zabitlərimizlə fəxr edirik: "44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də olsun fərari olmamışdır. Ancaq Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur. Biz şəhidlərimizlə, qazilərimizlə fəxr edirik, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə, əsgər-zabitlərimizlə fəxr edirik. Onların qəhrəmanlığı, onların fədakarlığı heç vaxt unudulmayacaq. Biz bütün dünyaya göstərdik ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı bu ədalətsizliklə heç vaxt barışmaq fikrində deyil".

Bəli, məhz 44 gün davam edən İkinci Vətən Müharibəsində Ermənistana layiq olduğu yer göstərildi. Düşmənçilik Ermənistana çox baha başa gəldi. 30 il ərzində Ermənistanda müstəqil dövlət qura bilmədilər və indi onlar xarici dairələrdən və xarici hərbi yardımdan tam asılı olduğu üçün onlardan gələn siyasi sifarişlərdən də tam asılıdır.

Bir sözlə, düşmənçilik və Azərbaycan xalqına nifrət Ermənistanı bu günə saldı və ədalət özünü göstərdi. Havadarlarının əli ilə qalib gəlmək xülyası, arzu etdikləri nə vardısa, hamısı puç oldu. 27 sentyabrdan başlanan şərəfli yol qələbəmizlə başa çatdı. Artıq bu gün işğaldan azad olunmuş torpaqlarımızda infrastruktur layihələri həyata keçirir. Şuşa dirçəldilir. Füzuli Beynəlxalq Hava Limanına ilk təyyarə enişi oldu. Ərazilərimizin minalardan təmizlənməsi, infrastrukturun yenidən qurulması, məcburi köçkünlərin geri qayıtması üçün işlərin görülməsi onu söyləməyə əsas verir ki, 30 il düşmən tapdağı altında qalan, amma azad ediləcəyinə hər zaman əmin olunan bu torpaqlarda artıq bu gün yeni həyat başlayıb.

Ən əsası isə bütün bu uğurlar, məhz ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev cənablarının qətiyyətli addımı, mövqeyi və nəhayət, yürütdüyü "Dəmir yumruq" siyasəti dayanır. Məhz bu Zəfər Qələbəsini isə torpağını, Vətənini sevən, döyüş meydanında vuruşub bu yoldan dönməməyi seçən, azadlığın verilmədiyini, alındığını sübut edən qəhrəman oğullarımız oldu. Və bu gün respublikamızın hər yerində olduğu kimi, Qazax rayonunda da torpaqlarımızın işğaldan azad edilməsi üçün həyatını qurban verən 3000-ə qədər şəhidimizi böyük ehtiramla xatırlayır, anır, xatirələrini uca tutur. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!

---

# Sergey Markov: ABŞ və Fransanın ermənipərəst mövqeyi Azərbaycanı qane etmir

### "Azərbaycan acı tarixi təcrübədən dərs çıxarıb və ermənilərə heç bir muxtariyyət verməyəcək"

Fransa və ABŞ son vaxtlar Qarabağın statusunun müəyyən edilməsinin vacibliyini təbliğ etməkdə son dərəcə fəallıq göstərirlər. Qarabağın statusu məsələsi üçtərəfli müqavilədə təsbit olunmamışdır. Artıq yalnız formal mövcud olan Minsk Qrupunun digər 2 həmsədrinin- ABŞ və Fransanın mütamadi olaraq Qarabağın statusundan danışması prosesə zərər vurmaqdan başqa heç nəyə yaramır. Azərbaycan heç kimə, hətta ATƏT - in Minsk Qrupuna belə Qarabağla bağlı üçtərəfli sazişi manipulyasiya etməyə imkan verməyəcəyini açıq şəkildə bildirdi.

**Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov bu məsələləri "Moskva-Bakı" portalına şərh edib. Politoloqun şərhini oxucularımızın diqqətinə çatdırırıq.**

"İlham Əliyevin bəyanatı qalib ölkə prezidentinin beynəlxalq hüquq normalarına əsaslanan bəyanatıdır. Prezident Azərbaycanın artıq bir neçə dəfə göstərilmiş mövqeyini ifadə edir. Bu mövqenin mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü xaricində Qarabağın statusu olmayacaq və Qarabağdakı erməni əhalisi Azərbaycana inteqrasiya olunmalı və digər Azərbaycan Respublikasının vətəndaşları ilə eyni hüquqlara malik olmalıdır. Amma vurğulamaq istəyirəm ki, Qarabağ erməniləri üçün Naxçıvan Muxtar Respublikası kimi muxtariyyət olmayacaq. Və burada tarixə əsaslanan tamamilə rasional, düzgün məntiq var. Çünki Azərbaycan artıq bir dəfə facię ilə nəticələnən separatizmlə üzləşmişdi. Birinci Qarabağ müharibəsi Azərbaycan xalqı üçün böyük bir faciə oldu- bir milyona yaxın qaçqına səbəb oldu, çoxlu sayda ölü, itkin, işgəncə, iqtisadiyyata böyük ziyan və milli travmalar verdi. Əgər separatizm yaranmasaydı, bəlkə də bu müharibə olmazdı. Azərbaycan bu acı təcrübədən dərs çıxarıb və ermənilərə heç bir muxtariyyət verməyəcək, çünki yeni bir mərhələdə bu muxtariyyətin separatçı meyillər üçün və yeni bir müharibəyə başlayaraq bu ərazilərdə Azərbaycanın suverenliyini şübhə altına almaq üçün istifadə olunacağından çəkinir. Ona görə də, Qarabağda müxtəlif millətlərin nümayəndələri yan-yana yaşamalıdır. Azərbaycan başqa variantlara icazə verməyəcək.

İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan əvvəllər işğal olunmuş ərazilərini geri aldı. Həmin ərazinin 30 faizində ermənilərin yaşamasına imkan verdi. Bildiyiniz kimi, Fransa və ABŞ ermənilərin yaşadığı əraziyə xüsusi status verilməsinin tərəfdarıdır. Bu isə ciddi bir problemdir. Azərbaycan ordusu Ermənistan ordusundan qat-qat güclüdür. Əgər Ermənistan üçtərəfli sazişi yerinə yetirməsə, bir müddət sonra başqa çıxış yolu görməyən Azərbaycan bir irəliləyiş edə və Qarabağda ermənilərin yaşamaqda olduğu qalan əraziyə də tam nəzarət qura bilər. Azərbaycan Ermənistanın üçtərəfli bəyanatının yerinə yetirilmədiyini bəyan edərsə, qalan ərazilərdəki dövlət hüququnu təkbaşına təmin etmək qərarına gələ bilər. Azərbaycan indi güclü mövqedən çıxış edir və bu baxımdan nəyinsə dəyişəcəyi ehtimalı yoxdur. Daha əvvəl Rusiya prezidenti Vladimir Putinin beynəlxalq hüquq baxımından Qarabağın Azərbaycan əraziləri olduğunu necə qeyd etdiyini xatırlayırıq.

Minsk Qrupu həmsədrlərinin fəaliyyətinin və onun hazırkı proseslərdəki rolunun qiymətləndirilməsinə gəlincə, qrupun komada olduğunu söyləmək olar. Problemin həlli əsasən, Azərbaycan və Rusiyanın iradəsi ilə durğunlaşır və buna görə də onlar qəbul edilmir. Əgər müharibədən əvvəl Azərbaycan həmsədrlərdən nəticə gözləyirdisə, indi Ermənistan üçün bu xəyaldır- danışıqları sürükləmək, Qarabağın statusunu sonsuzadək müzakirə etmək imkanı. Amma Sergey Lavrov həmsədrlərin prosesi oyatmamalı, əksinə, azərbaycanlılarla ermənilər arasında münasibətlərin qurulması üçün ortaq zəmin tapmalı və üçtərəfli bəyanatdakı məsələlərin həyata keçirilməsinə kömək etməli olduğunu da bəyan edib. Parisin və Vaşinqtonun Rusiyanın Cənubi Qafqazda danışıqların əsas təşəbbüskarı olan əsas sülhməramlı statusunu pozmaq istəməsi Moskvada bəyənilmir. Fransanın və ABŞ-ın ermənipərəst mövqeyini Azərbaycanı bəyənmir. Ancaq Minsk Qrupunu dağıtmaq da bir seçim deyil, heç kim onun "evtanaziyasına" görə məsuliyyəti öz üzərinə götürmək istəmir. Axı ABŞ və Fransa Təhlükəsizlik Şurasının daimi üzvləridir, nüfuzlu ölkələrdir. Amma Azərbaycan vasitəçilərin heç bir şərti manipulyasiya etməsinə və diktə etməsinə icazə verməyəcəyini açıq şəkildə bildirir.

ABŞ və Fransa Qarabağ nizamlanma prosesinin kənarında qalmaları və bu prosesə girib vəziyyətə təsir edə bilməmələrindən narazıdır. Ermənistanın narazılığına müraciət edərək oraya girmək istəyirlər. Ancaq Fransanı, məsələn, həmsədrlikdən götürmək və kənara atmaq olduqca çətindir.

Düşünürəm ki, burada hadisələr üçün bir neçə variant var. İlham Əliyev haqlıdır- Minsk Qrupu təxminən 25 il ərzində nə etdi? İndi nə edir? Həmsədrləri dinləmək lazımdır ki, "həll etdikləri" vəzifələri göstərsinlər. 25 illik danışıqlar uğursuz oldu. Bu müddət ərzində işğal davam etdi, qaçqınların əzabları davam etdi, işğal olunmuş ərazilərdə dağıntılar edildi, mədəni və dini irslər məhv edildi, ekoloji terror həyata keçirildi və ərazilərin



süni məskunlaşdırılması həyata keçirildi. Həmsədrlər heç nəyin öhdəsindən gələ bilmədilər və BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı qətnamələrinin yerinə yetirilməsi, insanların öz doğma yurdlarında yaşaya bilməmələri səbəbindən məsuliyyət daşımalıdırlar.

Düşünürəm ki, Azərbaycan nəticədə Minsk Qrupunun tərkibinə yenidən baxmağı və Fransa əvəzinə Türkiyəni də daxil etməyi təklif edəcək. Ya da bəlkə Fransa bir kompromis olaraq qalacaq və bir İslam ölkəsi qrupa daxil ediləcək ki, tarazlıq yaransın. Hamı başa düşür ki, Paris açıq-aşkar erməniperəst mövqe tutur. Həmsədrlərin tərəflərdən birinə meyl etməsi səhvdir və bunu dəyişdirmək lazımdır.

İkinci ssenari budur ki, Minsk Qrupu, Bakıda gözlənildiyi kimi, Moskvada da bildirildiyi kimi, Azərbaycanla Ermənistan arasında etimad tədbirləri ilə məşğul olmalı, humanitar və iqtisadi məsələlərin həllinə töhfə verməlidir. Gördüyümüz kimi, bütün bunlara, əslində, qatqı təmin etmirlər. Bundan başqa, düşünürəm ki, Moskva, Bakı və İrəvanın imzaladığı müqavilə Minsk razılaşmalarında olduğu kimi BMT Təhlükəsizlik Şurası tərəfindən də təsdiqlənə bilər. Həqiqətən də, Minsk razılaşmaları məsələsində Fransa və ABŞ mühüm rol oynayır. Həmsədrlər bu məsələdə məsuliyyəti öz üzərinə götürə bilər. Mənə elə gəlir ki, fransızları və amerikalıları heç olmasa "dəhlizdə" saxlamaq lazımdır, bu, onları soyuq çölə qovmaqdan daha ağlabatan bir seçimdir".

***Tərcümə - Elçin Bayramlı***

# Vətəni, milləti satan xəyanətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar



TƏHLİL

### Bu yerdə Vətən satqını Əli Kərimli həyasızlığı...

27 sentyabr - işğalçı Ermənistanın dünyada məğlub dövlət kimi qaldığı gün, Azərbaycanın Qələbə ilə bitən Vətənin azadlığı müharibəsinin başlandığı gün kimi tariximizə ən şərəfli gün kimi düşdüyü gün. Bu günü bütün dünya dövlətləri, həmçinin, xalqımız torpaqlarımızın azad olunmasının sevincini yaşadığı halda, radikal müxalifət deyilən satqınlar buna sevinmək, bunu qiymətləndirmək, Azərbaycan xalqından üzr istəmək əvəzinə, bu gün yenə də xəyanət və riyakarlıq yolunu tutur, sosial şəbəkələrdən mitinq çağırışı edirlər.

Çünki bunlar satılan-satan erməni çaqqallarından fərqlənməyən dağıdıcı düşərgənin çaqqaları yada düşür. Bunu biz demirik, elə eldə də belə adlanırlar, satqınlar. Baxın, görün Ömər Xəyyama görə satqınlıq nə deməkdir. Ömər Xəyyama görə, "İnsanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar, bu da həyasızlığın göstəricisidir". Dante "İlahi komediya" əsərində satqınları cəhənnəmin ən sonuncu - 9-cu qatında yerləşdirib. Cəhənnəmin lap mərkəzində duran İuda - onların simvoludur. Xəyanətlərin ən böyüyü - dövlətə xəyanətdir. Və bu "dəmir yumruq" əməliyyatı ilə 30 il Vətən, torpaq, yurd həsrətilə yaşayan xalqımızın bu niskilinə qələbə sevincini yaşadan Ali Baş Komandan, Prezident İlham Əliyevin diplomatik siyasəti ilə torpağı qanları ilə yoğuraraq Vətən edən Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərimiz haqqımızı, bütövlüyümüzü, Qarabağ Azərbaycanımızı öz sahibinə, özümüzə qaytardığı bu gündə Əli Kərimli, Sevinc Osmanqızı, Cəmil Həsənli, Qənimət Zahid, Gültəkin Hacıbəyli, Vidadi İskəndərli, Arif Məmmədov və bu kimi satqınlar sosial şəbəkələrdə çıxışları ilə riyakarlıqlarını nümayiş etdirirlər. Çünki bu, o radikal müxalifətçilərdir ki, xarici mərkəzlərin "əl müxalifətçiliyi" missiyasını həmişə yerinə yetirib və bu gün də davam etdirir. Bu, o riyakar və satqınlardır ki, sentyabrın 27-də erməni təxribatlarına qarşı əks-hücum əməliyyatları başlanan zaman 50 siyasi partiyanın qəbul etdiyi birgə bəyanatına, daha sonra ölkəmizə qarşı aparılan təcavüzkar siyasətin pislənməsinə yönələn və siyasi birliyimizi özündə ehtiva edən sənədlərə imza atmayaraq Vətən mübarihəsinin bitməsi ilə öz əsl kimliklərini bir daha ortaya qoydular.

### Radikal düşərgə 44 günlük müharibə dövründə heç bir həmrəylik çağırışlarına qoşulmadı

Qeyd edildiyi kimi, torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində Vətən müharibəsi getdiyi dövrdə ölkəmizdə fəaliyyət göstərən 50 siyasi partiyanın həmrəylik nümayiş etdirərək Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşdiyini özündə əks etdirən bəyanatına qoşulmayan radikal müxalifət tarixi qələbəmizdən sonra məsələyə yanaşmasında və ritorikasında açıq şəkildə dəyişikliklər etməyə başladı. Belə ki, sentyabrın 27-dən siyasi fəaliyyətində moratorium elan etdiyini deyən müxalifət artıq Fransa və digər ermənipərəst ölkələrin Azərbaycana qarşı mövqeyinə uyğun tezislərlə çıxış etməyə başladı.

Kimlərdir? Məgər müxalifətin dağıdıcı düşərgəsində yırtıcılar üçdür? Bu infeksiyalı düşərgədə sayı-hesabı yoxdu yırtıcıların. Ancaq "Milli Şura"nın yırtıcı ünsürləri Gültəkin Hacıbəyli, Cəmil Həsənli və Əli Kərimlidir ki, özlərini "müqəddəs üçlük" yox, yırtıcı üçlük elan etməlidirlər. Ancaq bu satqınlar hələ də anlamırlar ki, biri beşinə dəyməz, beşi birinə. Fərqində deyillər ki, "Milli Şura" çoxdan tarixin arxivinə gömülüb, təki qrant alsınlar. Bu aksiomadır ki, erməni xüsusi xidmət orqanlarına xidmət edən hər kəs, şübhəsiz ki, Azərbaycanın düşmənidir. O zaman ermənilərin dostları ilə dostluq edən "Milli Şura"çılar kimdir? Nə araşdırmaq lazımdır, nə də fikirləşmək. Cavab bəllidir. Çünki Vətən daşına dönük çıxanlar bu satnınlar" kadrosunda" toplaşıb. Belə satqınlar nə qanır Vətən, millət nə qədər böyük bir milli dəyər, mənəviyyatdır. Vətən millətin doğulduğu, doyduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən millətin evi, millət də vətəndə yaşayan ailədir. Vətən bizi qoruyan anadır. Vətən gözümüzün dünyada ilk gördüyü torpaqdır. Ancaq bu gün Orduxan Teymurxan, Emin Hüseynli, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Həbib Müntəzir, Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı, Leyla Yunus və.. və quduzları susdurmaq heç də çətin deyil. Və özlərini "mühacir" kimi qələmə verərək, havadarlarının xüsusi sifarişini yerinə yetirən erməni qulbeçələridir. Amma bu bədbəxtlər hələ də bilmirlər ki, havadarları onlardan uzunqulaq kimi yaxşı istifadə edirlər. Şərəfsizlik simvolu olan bu quduzlar hürə-hürə qalacaqlar. Və bu gün sosial şəbəkə virusları cinayəti demokratiya, əxlaqsızlığı şəxsi həyat, xəyanəti fəaliyyət azadlığı kimi təqdim etməyi "siyasi mübarizə" adlandıraraq özlərini "əsl müxalifətçi" hesab edirlərsə, o zaman susmaq haraya qədər? Belə bir məqamda susmaq yox! Yetər bu qədər, Sevinc Osmanqızı, Vidadi İskəndərli, Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və bu kimi məxluqların "Azərbaycan əsgəri" adından danışmağa! Yetər bu qədər iftira dediniz! Cəmiyyət sizlərə aşırı nifrət edir, yaxın zamanlarda əlahəzrət qanun qarşısında cavab verəcəyiniz günü səbirsizliklə gözləyir! Və xalqımız əmin olsun ki, Vətənə və dövlətə qarşı xəyanət yolu tutan bu satqın və naqis xəyanətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar - özü də Azərbaycan xalqı və qanunları qarşısında!

*Rəfiqə HÜSEYNOVA*

# Müsavat AXCP-yə qaşrı hücum taktikasına keçdi

### Arif Hacılı "b" planını işə salsa da...

Bir müddətlik sakitlikdən sonra Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) ilə Müsavat partiyası arasındakı əbədi intriqaçılıq vəziyyəti yenidən alovlanmağa başlayıb. Maraqlıdır ki, bu dəfə Müsavat tərəfi AXCP-yə qarşı hücum taktikası seçərək başda Əli Kərimli olmaqla cəbhəçiləri ikitirəlik salmaqda və düşərgənin "yeni müxalifətçilik" yolundakı maraqlarına "balta" vurmaqda suçlayıb. Əslində, həqiqətən də yeni hal olmayan və davamlı şəkildə baş qaldıran iki partiya arasındakı ziddiyyətlər ilk baxışdan təəccüblü görünməsə də, hər belə vəziyyətdə ictimai rəyə yeni detallar bəlli olmağa başlayır. Daha dəqiq desək, ifşaolmaların təməli məhz bu kimi qarşıdurmalardan qoyulur. Yeganə maraqlı cəhət isə budur ki, bu dəfə ilk hücumu hər zaman olduğu kimi Əli Kərimli başlatmayıb və bu məsələnin özü də suallar doğurur.

Başqa tərəfdən, ehtimal var ki, son vaxtlar AXCP-də baş verən qopmalar müsavatçıları hərəkətə keçirib və onlar Əli Kərimlidən imtina edən istefaçıları məhz Müsavat sıralarına cəlb etməyə çalışırlar.

### Görünür, bu səbəbdən, Müsavat başqanı indi də cəbhəçilərə qarşı total hücumlara start verib

Onu da qeyd etmək yerinə düşərdi ki, Müsavat partiyasının başqanı Arif Hacılı hələ səsli-küylü başqanlıq seçkisindən sonra ələ keçirdiyi posta yiyələnər-yiyələnməz keçirdiyi mətbuat konfransında bəyan etmişdi ki, onun AXCP ilə hər hansı bir problemi yoxdur və Müsavat rəhbərliyi cəbhəçilərlə yeni açılan səhifədən əməkdaşlığa gedə bilər. Hətta o, öz təklifləri ilə Əli Kərimlinin ayağına gedərək, xələfi İsa Qəmbərin AXCP-yə münasibətdə səhv olduğunu dolayısı ilə etiraf belə etmişdi. Çünki Müsavatın AXCP ilə münasibətləri birincinin "Milli Şura"nın sıralarını tərk etməsindən sonra pozulmuşdu.

Xatırladaq ki, həmin vaxt İsa Qəmbər "Milli Şura"nı rusiyapərəst mövqedən çıxış etdiyini bəyan edərək qurumu anti-milli adlandırmışdı. Yəni eyham vurmuşdu ki, bu faktor Müsavatın qərbyönümlü siyasəti ilə üst-üstə düşmür. Ancaq Müsavatda başqan dəyişikliyi baş verəndən sonra Arif Hacılı yenidən AXCP-yə əməkdaşlıq təklifini irəli sürdü.

Ancaq bu dəfə AXCP sədri Əli Kərimli onun təklifinə birmənalı olaraq rədd cavabı verdi. Hacılının sonrakı təşəbbüsləri də boşa çıxdı və beləliklə, onun öz yerini möhkəmləndirməkdən ötrü AXCP-yə olan umacağı baş tutmamış qaldı.

Görünür, bu səbəbdən Müsavat başqanı çoxdan hazırladığı və illərdir tətbiq etmədiyi "b" planını işə salaraq, cəbhəçilərə qarşı total hücumlara start verib. Artıq bunu sosisal şəbəkədə də görmək mümkündür.

Düzdür, hələlik müsavatçıların rəhbəri, bilavasitə ittiham fikirlərini irəli sürməsə də, onun müavinləri Əli Kərimlini, AXCP-ni və "Milli Şura"nı çox kəskin şəkildə "asıb-kəsirlər". Bu xüsusda başqan Arif Hacılının qardaşı, eləcə də müşaviri və partiyanın "Divan" üzvü Mustafa Hacıbəyli, habelə partiyanın icra aparatının rəhbəri Gülağa Aslanlı daha çox canfəşanlıq göstərirlər.

### Vəziyyət qızışıb...

Nəticədə, qarşıdurma qızışıb və Arif Hacılının göstərişinə əsasən AXCP-yə qarşı başladılan hücumun cinahlarında dayanan partiya rəhbərliyi ittihamları sanki qatar-qatar bir-birinin ardınca düzürlər. "Təəssüf ki, bir daha məlum oldu ki, Əli Kərimlini ümumi maraqlar deyil, AXCP və "Milli Şura"nın maraqları düşündürür", deyə sözügedən ittihamlarda bildirilir.

Beləliklə, bir müddətlik sakitlikdən sonra "ana müxalifət" adı uğrunda barışmaz savaç aparan hər iki partiya - həm AXCP, həm də Müsavat yeni kontekstdə savaşa qalxıblar. Uzun illərdən bəridir davam edən bu savaşdan isə qalibin çıxmadığı kimi, məğlubun da kim olması bəllidir. Məğlub hər iki partiya və onların liderləridir.

*Rövşən RƏSULOV*

# “Müxalifət quru yerdə bir fırtına yaratmaq istəyir”

## PARTİYA SƏDRİ MÜNASİBƏT BİLDİRDİ



“Müxalifət düşərgəsindəki bəzi şəxslərin diqqət mərkəzinə çevrilmək istəmələri normal bir haldır. Amma baxır burada onlar nəyi istəyir və məqsəd nədir? Əgər sənin qarşıya qoyduğun məqsəd dövlət və cəmiyyət üçün xeyirlidirsə, onda buyur. Yox əgər sən hər hansı bir məqsədə çatmaq üçün bir bəhanə axtarırsansa, yəni quru yerdə bir fırtına yaratmaq istəyirsənsə, bu, baş tutmayacaqdır". Bunu Təkamül partiyasının sədri Teyyub Qənioğlu "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, müxalifətdə olan bəzi şəxslərin gündəmə gəlmək üçün reallığı özündə əks etdirməyən məsələlərdən öz məqsədləri üçün istifadə etməsi yaxşı bir hal deyil: "Siyasətçilərin verdiyi qərarlar, nəinki özlərinin və ətrafının, bütövlükdə cəmiyyətin və dövlətin taleyinə bu və ya digər şəkildə kömək edir. Cəmiyyətin də böyük bir hissəsi siyasətçilərin davranışlarından nümunə götürürlər. Ümumiyyətlə, bu cür hərəkətlər daha çox düşünülüb daşınılmalıdır və bundan sonra addımlar atılmalıdır. Ölkədə sabitliyi pozmaq və ölkəmizin əldə etdiyi uğurlara, nailiyyətlərə kölgə salmağa çalışırlar. Amma onların nə düşünməsindən və etməsindən asılı olmayaraq Azərbaycan dövləti öz uğurlu, parlaq siyasətini davam etdirir. Xalqımız Prezidentimiz tərəfindən aparılan uğurlu siyasətini dəstəkləyirlər və hər zaman əməli fəaliyyəti ilə Prezident İlham Əliyevin yanında olduğunu nümayiş etdirib".

*Gülyana*

**1920-ci ildə Azərbaycan SSR-nin gərgin daxili və xarici vəziyyəti bütün Sovet respublikaları ilə, ilk növbədə RSFSR-lə dostluq münasibətləri və iqtisadi əlaqələr yaradılmasını tələb edirdi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə " istiqaməti çərçivəsində hazırlanıb.*

# Rusiya və Azərbaycan arasında Moskva müqaviləsindən 101 il keçdi

Keçmiş çar Rusiyasının ucqarlarında yaşayan bütün xalqlar kimi, Azərbaycan xalqı da ümid edirdi ki, təzə quruluş şəraitində onların arasında tamamilə yeni münasibətlərin başlanğıcı qoyulacaq, rus xalqı ilə keçmişdə Rusiyanın əsarətində olan xalqlar arasında tam azadlıq və müstəqillik zəminində bərabər hüquqlu münasibətlər yaranacaq. Sosialist inqilabın rəhbəri V.İ.Lenin yazırdı: ”Rus olmayan millətlərin hamısına biz onların özünə məxsus respublikalar və ya muxtar vilayətlər vermişik”.

1920-ci il mayın 20-də RK(b)P MK-nın qəbul etdiyi qərarda deyilirdi: G.Çiçerinə tapşırılsın ki, qarşılıqlı münasibətləri müəyyənləşdirmək üçün danışıqlara başlamaq təklifi ilə Azərbaycan Sovet hökumətinə müraciət etsin. Cavab alındıqdan sonra Krestinski, Çiçerin yoldaşlardan, AXTŞ-nın və hərbi idarənin nümayəndələrindən ibarət komissiya təyin olunsun. Xalq Milli İşlər Komissarlığının nümayəndəsi yoldaş Kaminskiyə komissiyada iştirak etməyə icazə verilsin”.

RSFSR hökuməti Xalq Xarici İşlər Komissarı G.V.Çiçerin öz imzası ilə Azərbaycan SSR hökumətinin başçısı Nəriman Nərimanova xüsusi nota göndərərək, ”ümumi məqsədlərə nail olmaq naminə öz müntəzəm əməkdaşlığı yolunda hər iki respublikanın birgə fəaliyyətini asanlaşdıran daimi qarşılıqlı münasibət formaları yaratmaq haqqında” danışıqlara başlamağı təklif etdi. Notada danışıqlar aparmaq üçün Moskvaya respublikadan daimi nümayəndə göndərməyin vacibliyi göstərilirdi. Notada deyilirdi: ”Rusiyanın Sovet hökuməti zənn edir ki, məqsədlərimizin birliyi və fəhlə-kəndli quruluşunun həmrəyliyi, təbii, hər iki qardaş respublikanı- Rusiya və Azərbaycan respublikalarını rəsmiləşdirilmiş sarsılmaz əlaqələr yaradılmasına gətirib çıxara bilər və bu əlaqələr ümumi sovet siyasəti yolunda daimi əməkdaşlığı asanlaşdırar.

1920-ci il iyulun 13-də isə AK(b)P MK bürosu siyasi, hərbi və iqtisadi xarakterli bir sıra məsələləri aydınlaşdırmaq üçün Azərbaycan SSR-in nümayəndəsi kimi Moskvaya- RSFSR Xalq Komissarları Sovetinə gedəcək B.A.Şahtaxtınskinin məruzəsi haqqında məsələni müzakirə etdi. Azərbaycan SSR ilə RSFSR arasında qarşılıqlı münasibətlər və B.A.Şahtaxtınskiyə veriləcək direktivlər barəsində məsələlər iyulun 15-də AK(b)P MK bürosunda yenidən müzakirə olundu və büro xüsusi komissiyaya təklif etdi ki, Azərbaycan SSR-in RSFSR-dəki nümayəndəsi B.A.Şahtaxtınski üçün direktivlərin müddəalarını işləyib hazırlasın.

1920-ci il iyulun 15-də Azərbaycan İnqilab Komitəsi xalq ədliyyə komissarı B.A.Şahtaxtınskini fövqəladə səlahiyyətli nümayəndə təyin etdi və ona ”RSFSR hökuməti ilə bütün məsələlər, istər siyasi, istərsə də iqtisadi məsələlər barədə danışıqlar aparmaq və sonradan təsdiq olunmaq şərti ilə, Azərbaycan SSR adından hər cür müqavilə və öhdəliklər imzalamaq üçün” mandat verdi.

1920-ci il iyunun axırında Azərbaycan SSR-in xalq xarici işlər komissarı M.D.Hüseynov da Sovet Rusiyası və Sovet Azərbaycanının qarşılıqlı münasibətləri məsələlərini aydınlaşdırmaq, onların arasında sıx ittifaq yaratmaq, habelə beynəlxalq məsələlər barədə fəaliyyət planını razılaşdırmaq və işləyib hazırlamaq məqsədilə Moskvaya getdi. M.D.Hüseynov bütün bu məsələlər barəsində V.İ.Lenin və G.V.Çiçerinlə ətraflı söhbət etmişdi.



**RSFSR ilə Azərbaycan SSR arasında dostluq münasibətləri və iqtisadi əlaqələr yaradılması barədə bağlanan Moskva müqaviləsindən 101 il keçir**

V.İ.Leninin iştirakı ilə 1920-ci il avqustun 5-də RK(b)P MK plenumu Azərbaycan SSR və RSFSR arasında qarşılıqlı münasibətlər haqqında məsələni müzakirə etdi və G.V.Çiçerin başda olmaqla komissiyaya müvafiq layihə hazırlamağı tapşırdı.

Azərbaycan SSR ilə RSFSR arasında qarşılıqlı münasibətlər haqqında məsələ sentyabrın 6-da AK(b)P MK və BK-nın birləşmiş iclasında, məsul işçilərin iştirakı ilə həmkarlar ittifaqlarının rəyasət heyətlərində də müzakirə olundu.

V.İ.Leninin rəhbərliyi və A.A.Andreyevin, F.E.Dzerjinskinin, M.İ.Kalininin, İ.V.Stalinin iştirakı ilə 1920-ci il sentyabrın 20-də RK(b)P MK plenumu Azərbaycan SSR-lə müqavilənin Xalq Xarici İşlər Komissarlığının təqdim etdiyi layihəsini müzakirə etdi. Plenum ”Azərbaycan Respublikası ilə müqavilə XKS-yə təqdim edilənə qədər gözdən keçirilmək və Azərbaycan haqqında bizim siyasətimizin xarakterinə dair partiya qərarını həmin müqaviləyə əlavə etmək üçün” komissiya yaratmağı qərara aldı.

Azərbaycan SSR-in fövqəladə və səlahiyyətli nümayəndəsi B.A.Şahtaxtinski müqavilənin hazırlanmasında fəal iştirak edirdi. Müqavilənin layihəsi Azərbaycanda da müzakirə olunmuşdu.

RSFSR ilə Azərbaycan SSR arasında müqavilə haqqında məsələnin həlli prosesi bilavasitə partiya rəhbərliyi altında gedirdi. 1920-ci il sentyabrın 29-da V.İ.Leninin sədrliyi ilə RK(b)P MK plenumu Azərbaycan SSR ilə RSFSR arasında bağlanacaq müqaviləni təsdiq etdi.

Müqavilə 1920-ci il sentyabrın 30-da Moskvada imzalandı. Müqavilədə göstərilirdi ki, bir tərəfdən, Azərbaycan SSR hökuməti və digər tərəfdən isə RSFSR hökuməti ”Azərbaycan və Rusiyanın zəhmətkeş kütlələrinin tam mənafe birliyinin dərk olunmasını əsas tutaraq və ancaq hər iki respublikanın bütün qüvvələrini tam birləşdirməklə ümumi düşmənə- imperialist burjuaziyaya qarşı ağır mübarizədə onların müvəffəqiyyət qazanmalarının təmin oluna biləcəyini nəzərə alaraq, bu müqaviləni bağlamağı qərara almışlar”.

Müqavilənin 1-ci maddəsində deyilirdi: ”Azərbaycan və Rusiya öz aralarında sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırlar”.

İkinci maddədə göstərilirdi ki, hər iki respublika hərbi orqanlarını, xalq təsərrüfatı, xarici ticarət, təchizat, dəmiryol və su nəqliyyatı, maliyyə, poçt və teleqraf orqanlarını ən qısa müddətdə birləşdirməlidirlər.

RSFSR və Azərbaycan SSR eyni zamanda, müqaviləyə əlavə olaraq, ərzaq siyasətinin, poçtun, teleqrafın birləşdirilməsinə və maliyyə, xarici ticarət, iqtisadi siyasət məsələlərinə dair sazişlər bağladılar. Azərbaycan SSR-in dəmir yollarının RSFSR-in dəmiryol şəbəkəsinə birləşdirilməsi haqqında saziş isə hələ 1920-ci ilin avqustunadək imzalanmışdı.

Ərzaq siyasətinin birləşdirilməsinə dair sazişdə göstərilirdi ki, ”Azərbaycan SSR-in ərzaq siyasətinin əsasını RSFSR-də həyata keçirilən başlıca prinsiplər təşkil edir. RSFSR Xalq Ərzaq Komissarlığı Azərbaycan SSR əhalisini fasiləsiz surətdə və tam vaxtında təchiz etmək üçün özündən asılı olan bütün tədbirləri görür”.

Poçt və teleqrafın idarə olunmasının birləşdirilməsi haqqında saziş RSFSR-də çıxmış müvafiq qanun və qərarların Azərbaycan SSR ərazisində tətbiq edilməsini nəzərdə tuturdu. Sazişdə xalq poçt və teleqraf komissarlıqlarının birbaşa birləşdirilməsi göstərilmir, yalnız bildirilirdi ki, Rusiya Respublikasından gedən əsas rabitələr, Azərbaycan ərazisindəki güclü radiostansiyalar, habelə beynəlxalq poçt-teleqraf rabitəsi bilavasitə RSFSR Xalq Poçt və Teleqraf Komissarlığının tabeliyindədir.

Maliyyə məsələləri haqqında sazişdə deyilirdi ki, RSFSR Xalq Maliyyə Komissarlığı Azərbaycan SSR Xalq Komissarları Soveti yanında özünün həlledici səsə malik səlahiyyətli nümayəndəsini təyin edir. Sazişdə birləşmiş xalq komissarlıqları üzrə smetaların təsdiqolunma qaydası da müəyyənləşdirilmişdi.

Xarici ticarət məsələlərinə dair sazişə əsasən, Azərbaycan SSR başqa ölkələrlə iqtisadi əlaqələr yaratmağı və onlarla müqavilələr bağlamağı yalnız RSFSR Xalq Xarici İşlər Komissarlığı vasitəsilə həll edə bilərdi. Bu baxımdan aşağıdakı fakt maraq doğurur: 1920-ci il iyulun 15-də AK(b)P MK bürosu mal mübadiləsi barədə müqavilə bağlamaq haqqında Gürcüstanın menşevik hökumətinin təklifini (neftlə mübadilə etmək üçün parça, ayaqqabı, kağız və s. təklif olunurdu) müzakirə edərək, belə bir ticarət müqaviləsi bağlamağı qərara almış və bunu onunla əsaslandırmışdı ki, Azərbaycanın Rusiya ilə ümumi iqtisadi siyasəti var (neft məsələsi ümumi məsələdir, onu birgə həll etmək lazımdır); siyasi məsələ iqtisadi məsələ ilə sıx bağlıdır.

1920-ci il noyabrın 5-də AK(b)P MK Siyasi Bürosu xarici ticarət haqqında məsələni müzakirə edərək qərara aldı: ”Azərxariciticarəti Rusiyanın Azərbaycanda, İranda və Türkiyədəki xarici ticarət idarələri ilə birləşdirmək prinsip etibarilə zəruri sayılsın”.

1920-ci ilin dekabrında RSFSR Xalq Poçt və Teleqraf Komissarlığı ilə Azərbaycan SSR Xalq Poçt və Teleqraf Komissarlığı arasında rabitənin bütün növlərinin inkişaf etdirilməsi və istismarı haqqında saziş təsdiq olundu.

RSFSR ilə Azərbaycan SSR arasında vahid iqtisadi siyasət yeridilməsi haqqında sazişə əsasən, Azərbaycan Xalq Təsərrüfatı Şurası özünün istehsal planını RSFSR-in ümumi istehsal planı ilə uzlaşdırmaqla təsdiq edirdi. Azərbaycan Xalq Təsərrüfatı Şurası ilə sazişə əsasən Ümumrusiya XTŞ Azərbaycanın sənayesini və ayrı-ayrı müəssisələrini maliyyələşdirmək vəzifəsini öz üzərinə götürürdü.

Azərbaycan SSR-in və RSFSR-in hərbi-iqtisadi əməkdaşlığı əhali tərəfindən razılıqla qarşılandı. Xalq bunda öz gələcək iqtisadi və mədəni inkişafı üçün təminat görürdü. O vaxt ”Azərbaycan füqərası” qəzeti yazırdı: ”Biz öz qardaşlarımızla- Rusiya fəhlələri və kəndliləri ilə birlikdə dünya fəhlələrinin işi uğrunda çarpışacaq və birlikdə, yalnız birlikdə qalib gələcəyik”.

Moskva müqaviləsi 1922-ci ildə Sovet İttifaqının yaradılması və respublikaların bu ittifaqa daxil olmasınadək qüvvədə oldu. 1922-ci ildən 1991-ci ilədək Azərbaycan Sovet İttifaqına daxil olan respublika kimi öz varlığını davam etdirdi. 1991-ci ildə isə ittifaqdan çıxaraq tam müstəqilliyini bərqərar edən Azərbaycan 30 ildir ki, dünya birliyindən öz layiqli yerini tutur.

***Altay***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

30 sentyabr

SƏS

Son səhifə

# "Bavariya" bu futbolçuya "elçi" düşüb...




*"Bavariya" heyətini gücləndirmək üçün futbolçu axtarışındadır. Qol.az xəbər verir ki, Münhen təmsilçisi "Ayaks"ın futbolçusu Antoni ilə yaxından maraqlanır. Klub ötən yay transfer pəncərəsində bu keçidi reallaşdırmaq istəsə də, alınmayıb. "Bavariya" növbəti qış transfer pəncərəsində 21 yaşlı yarımmüdafiəçini sıralarına cəlb etməyə çalışacaq. Lakin qarşı tərəf Antoni üçün ən az 20 milyon avro tələb edəcək. Qeyd edək ki, Antoni ötən ildən "Ayaks"da oynayır.*

# 3 milyon dollar dəyərində bulka



**3 milyon dollar dəyərində təmiz qızıldan olan avokadalı bulka Berlin incəsənət həftəsinin əsl sensasiyasına çevrilib. "Kim əbədi yaşamaq istəyir?" adlı sənət əsəri alman rəssamı Tim Bengelin yeni işidir. Eksponat 18 karat qızıldan olan 27 ayrı hissəciklərdən ibarətdir. Bengelin sözlərinə görə, usta öz işi ilə "bizim nəslin zamanının ruhunu əks etdirmək" istəyib.**

"Sosial şəbəkələrdə böyük populyarlığa görə avokadodan daha yaxşı bir simvolik meyvə yoxdur", - deyə Bengel əlavə edib. Eksponat üçün maket olan real bulka sayəsində ən böyük realizm əldə edilib. Məmulat 3D formada skan edilib, sonra isə üzərinə təxminən 10 kiloqram maye qızıl tökülüb.

Tezliklə, bu qeyri-adi eksponatı digər sərgilərdə, Mayamidə, ola bilsin İngiltərə və Rusiyada da görmək olar.

Rəssam həmçinin "Roth"qalereyası vasitəsi ilə qızıl bulkanın potensial alıcıları ilə də danışıqlar aparır. Məmulat özü hərraca çıxarılmayacaq və onun qiyməti müzakirə olunmur.

# Dubay şirkəti "Barselona"nın 1.5 milyardlıq borcunu ödəməyə hazırdır

***Adı açıqlanmayan Dubay şirkəti Kataloniyanın "Barselona" klubuna 1.5 milyard avro məbləğində borcunu ödəməyə hazırdır. Bu barədə sport.es El Curubito televiziya proqramına istinadən məlumat yayıb.***

Bildirilib ki, Dubayda yerləşən şirkət Kataloniya təmsilçisinə ən azı iki illik moratorium (ləngitmə, təxirəsalma-red) təklif etməyə hazırdır. Beləliklə, futbol klubunun borcu Dubaydan olan iş adamları tərəfindən ödəniləcək və "Barselona"nın bu şirkətə borcu qalacaq, lakin bu, təxirə salınmış ödəniş alacaq. Bu seçim klubun normal fəaliyyətinə qayıtmasına və idman məqsədlərinə diqqət yetirməsinə imkan verəcək.

Bildirilib ki, təklif Kataloniya təmsilçisi üçün çox faydalıdır, çünki moratorium 2 ildən 12 ilədək müddətə təyin oluna bilər. Eyni zamanda, "Barselona"nın borcunu verməyə hazır olan Dubay şirkətinin tələbləri olduqca aşağıdır.




# Məşhur müğənni virusa yoluxdu



Amerikanın məşhur müğənnilərindən olan Kelly Prays virusa yoluxub. SİA xarici mətbuata istinadən xəbər verir ki, məşhur ulduzun koronavirusdan sağ çıxdıqdan sonra xəstəxanadan buraxıldığını və yoxa çıxdığını söyləyir.

Praysın vəkili məşhur müğənninin yaşadığı Atlanta bölgəsində itkin düşdüyü bildirildikdən sonra cümə gecəsi təhlükəsiz olduğunu söyləyib. Vəkil onun müalicə aldığını söyləyərək xəbərləri təkzib edib.

***Ayşən Vəli***

# Yaxın üç gün ərzində hava necə olacaq?

## Proqnozlar Bürosunun direktoru AÇIQLADI



***"Yaxın günlər ərzində, yəni oktyabrın 1-i gündüz saatlarına kimi Bakıda və Abşeron yarımadasında hava şəraiti qeyri-sabit keçəcək. Gecə arabir yağış yağacaq". Bu sözləri SİA-ya açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova məlumat verib.***

Onun sözlərinə görə, bəzi yerlərdə yağıntılar intensiv xarakterli olacaq: "Bölgələrdə də yağıntılı hava şəraiti davam edəcək. Dolu düşəcəyi ehtimalı var. Yüksək dağlıq ərazilərdə isə qar yağacağı ehtimal olunur". "Bu hava şəraiti bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər".

***Ayşən Vəli***

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600